# Asiya və Afrika Ölkələrinin Tarixi
# (1945-2000)
Rafiq İsmayılov, Nərgiz Axundova

İran (1940-cı illər)
İran (1950-77)
İran (1978-1989)
İran 90-cı illərdə

* * * * * * * * * *

## İran (1940-cı illər)

Qeyd etmək lazımdır ki, istər II dünya müharibəsi illəri, istərsə də müharibənin qurtarmasından sonrakı bir neçə illər ərzində İranda baş verən proseslər ölkənin XX əsr tarixinin ən həyəcanlı və ən dramatik dövrlərindən biri kimi xarakterizə olunur.
Nəyə görə?
Birincisi, İran cəmiyyətində sosial-siyasi fəallıq birdən və qəti şəkildə yüksəlmişdi; ikincisi, ölkənin daxili və xarici siyasətinin başlıca problemləri ətrafında mübarizə kəskinləşmişdi; üçüncüsü, İranın gələcək ictimai və dövlət quruluşunun xarakteri haqqında qızğın müzakirələr siyasi həyata xüsusi bir gərginlik gətirmişdi; dördüncüsü, ölkənin əlverişli, geopolitik mövqeyindən yararlanmaq və İranda öz maraqlarını təmin etmək uğrunda ənənəvi olaraq burada nüfuzları güclü olan Böyük Britaniya və Sovet İttifaqı ilə yanaşı Amerika Birləşmiş Ştatları da mübarizəyə qatılmışdı. Əslində bu proseslər 1941-ci ilin avqustunda Sovet İttifaqı və Böyük Britaniyanın, 1942-ci ilin sonlarından ABŞ hərbi qüvvələrinin İrana girməsi ilə başlamışdı. Həmin dövrdə Rza şah Pəhləvi taxtdan salınmış, onun yerinə oğlu Məhəmməd Rza Pəhləvi gətirilmiş, bununla da uzun illər İranda mövcud olmuş hərbi diktatura rejiminə son qoyulmuşdu. Məhz bu da ölkədə müxtəlif siyasi və ictimai təşkilatların öz fəaliyyətini xeyli dərəcədə artırmasına imkan yaratmış, ölkənin idarə edilməsində şahın bilavasitə özünün iştirakını məhdudlaşdırmağa, seçkili orqanların, xüsusilə də parlamentin-məclisin rolunun güclənməsinə gətirib çıxarmışdı. Əslində belə bir şəraitin yaranmasında -, daxili amilləri istisna etmirik və rolunu da azaltmırıq,xarici amillərin rolu xeyli böyük olmuşdur. 1942-ci ildən İranın iqtisadi qaynaqlarını və torpaqlarını, dövlət idarəçiliyini və torpaq bütövlüyünü öz təminatı altına alan Sovet İttifaqı və Böyük Britaniya, eləcə də ABŞ hələ müharibə getdiyi illərdə gələcək İran haqqında düşünürdülər. Təsadüfi deyildir ki, 1943-cü il Tehran konfransında bu dövlətlərin başçıları İranın yenidən qurulmasına yardım etməyi öz öhdələrinə götürməyə söz vermişdilər. Təbiidir ki, bu dövlətlərin də hər biri gələcək İranı öz istədikləri kimi görmək istəyirdi, onu öz yerli tərəfdarlarının əlində görmək istəyirdi və bu istiqamətdə hər üç dövlət ölkədə lazım olan sosial və siyasi dayaqlarını gücləndirirdi. Sovet İttifaqı açıq-aşkar şəkildə İran Kommunist partiyasının varisi Xalq partiyasını (Tudə) və onun ətrafında birləşən qüvvələri dəstəkləyirdi. Bu partiya ölkədə demokratik dəyişikliklər aparılması, xalqın həyat və iş şəraitinin yaxşılaşdırılması, İranın milli suverenliyinin möhkəmləndirilməsi və xarici konsessiyaların ləğv edilməsi uğrunda mübarizəni öz başlıca proqramı elan etmişdi. Kifayət qədər cəlbedici olan bu şüarlar az bir zamanda Tudə partiyasının şöhrətini artırdı və onun üzvlərinin sayını yüz min nəfərə çatdırdı. 1944-cü ildə keçirilən parlament seçkilərində bu partiyanın bir neçə üzvü parlamentə seçildi. Hətta 1946-cı ildə Əhməd Qəvvamın (Qəvvam əs-

Səltənə) təşkil etdiyi hökumətin tərkibində 3 tudəçi də olmuşdur.
Əhməd Qəvvamın (1877-1955) özünə gəlincə o, iri torpaq sahibi idi, təcrübəli bir siyasətçi sayılırdı. İranın ABŞ-la münasibətlərinin möhkəmləndirilməsinin tərəfdarı kimi məşhur idi. Əhməd Qəvvamın təşəbbüsü ilə 1946-cı ildə yaradılan Demokrat Partiyası isə daha çox İran cəmiyyətinin siyasi və iqtisadi baxımdan imkanlı qüvvələrini birləşdirmək məqsədi daşıyırdı və ölkədə iqtisadi, siyasi dəyişikliklər aparılmasını, şah hakimiyyətinin daha çox məhdudlaşdırılmasını istəyirdi. 1946-cı ilin əvvəllərində Əhməd Qəvvam baş nazir olduqdan sonra həqiqətən yuxarıda sadalanan prinsiplərin həyata keçirilməsində maraqlı olduğunu sübut etdi, dövlət aparatında çalışan ingilispərəst siyasi kurs tərəfdarlarını vəzifələrindən uzaqlaşdırdı, əmək haqqında qanunun qəbul edilməsinə nail oldu, Azərbaycan türklərinin və kürdlərin hüquqlarının genişləndirilməsinə söz verdi, İngiltərə-İran Neft Kompaniyasının (İİNK) istismar etdiyi neft mədənləri üzərində İranın hüquqlarının bərpa edilməsi məsələsini hökumətin gündəliyinə gətirdi. Lakin ölkədə kifayət qədər qüvvələr var idi ki, Qəvvam hökumətinin fəaliyyətindən ciddi şəkildə narazı idilər və onu tənqid edirdilər. Bu qüvvələr bir sıra qrup və təşkilatlarda birləşmişdilər, əsasən qəbilə başçıları, iri torpaq sahibləri və tacirlər, yüksək rütbəli hərbçilər və məmurlar, saraya yaxınlığı ilə tanınan mühafizəkar ovqatlı siyasi xadimlərdən ibarət idilər. Onlar ingilispərəst təmayüllü idilər, məclisdə də kifayət qədər nüfuz və söz sahibi kimi tanınırdılar. Məhz bu qüvvələrin kəskin reaksiyası ilə qarşılaşan Qəvvam İrandakı imtiyazlı sosial qrupların təmsilçilərini bütünlükdə öz ətrafında birləşdirmək niyyətinə nail ola bilmədi. Bu baxımdan liberal-millətçi qüvvələri xüsusi ilə qeyd etmək lazımdır. Liberal-millətçi qüvvələr daha müstəqil xətt və mövqe nümayiş etdirdilər. Onlar "İran" partiyasında birləşmişdilər və ölkənin modernləşdirilməsi üçün radikal sosial-iqtisadi və siyasi islahatlar keçirilməsini istəyirdilər. Liberal-millətçilərin sıralarında K.Səcabi, M.Bazarqan və s. kimi liderlər var idi.
Həmin illərdə İrandakı başqa bir qüvvə də get-gedə fəallaşır və öz təşkilati strukturlarını yaradırdı. Bu qüvvə əsasən klerikal siyasətçilərdən və dini-siyasi qruplardan ibarət idi. Onlar İranda hər hansı bir xarici dövlətin nüfuzunun artmasına qarşı idilər və mübarizələrində mümkün olan bütün imkanlardan istifadə edirdilər. Dini-siyasi qruplardan 1944-cü ildə yaranmış və qeyri-leqal fəaliyyət göstərən "Fədayan-e islam"ı (İslam fədailəri) xüsusi qeyd etmək lazımdır. "Fədayan-e islam"ın üzvləri İrandakı bu və ya digər xarici dövlətin maraqlarını dəstəkləyən şəxs kimi tanınmış siyasətçilərə və antiklerikal görüşlü ictimai xadimlərə qarşı terror aktları təşkil etməkdən belə çəkinmirdilər. Klerikal müxalifətin liderlərindən olan Kaşani, demək lazımdır ki, o, antiingilis çıxışlarına görə ölkədə çox məşhur idi, - "Mocahidan-e islam" ("İslam mücahidləri") partiyasını yaratmışdı. Partiya əsas diqqətini ona yönəltmişdi ki, İran cəmiyyətində müsəlman ruhanilərinin mövqeyi gücləndirilsin və bu sahədə geniş təbliğat kampaniyası aparılırdı.
Artıq 1945-ci ilin yaz-yay aylarında isə İranın siyasi həyatında milli təmələ söykənən yeni bir mübarizə geniş və daha kəskin forma aldı. Bu, ilk növbədə, Cənubi Azərbaycan türklərinin və Şimali Kürdüstan əhalisinin öz milli hüquqları uğrunda güclü bir hərəkata qoşulması ilə bağlı idi. Şübhəsiz ki, bu məsələdə xarici dövlətlərin maraqları da öz rolunu oynamışdı. Bəlli olduğu kimi, Cənubi Azərbaycanda yerli kommunistlərin və digər sol görüşlü millətçi qüvvələrin təşəbbüsü ilə S.C.Pişəvərinin başçılığı altında Azərbaycan Demokrat Partiyası (ADP) yaradıldı və bu partiya Cənubi Azərbaycan türkünün milli haqlarının təmin olunması və qorunması işini öz fəaliyyət proqramı elan etdi. Elə buna görə də Demokrat Partiyası Cənubi Azərbaycan xalqının bütün təbəqələri tərəfindən dəstəklənirdi. Az keçmədi ki, ADP öz sıralarında 70 min üzvü birləşdirdi, milli-demokratik bir partiya kimi tanındı. Onun İran dövləti daxilində Cənubi Azərbaycana mədəni və yerli özünüidarə sahələrində muxtariyyət verilməsi tələblərinə bütün xalq qoşulmuşdu. 1945-ci ilin 12 dekabrında Azərbaycan Muxtar Cümhuriyyətinin yaradıldığı elan edildi. İran hökuməti Təbrizdə baş verən bu hadisələrin qarşısını almaq üçün ora ordu hissələri göndərmək istədikdə sovet hərbi

komandanlığı buna mane oldu.1945-ci ilin axırlarında Azərbaycan Milli Məclisinə seçkilər keçirildi, bunun ardınca isə Azərbaycanın milli hökuməti təşkil edildi. Hökumətin proqramında Azərbaycan muxtariyyətinin möhkəmləndirilməsi, ölkədə bir sıra demokratik dəyişikliklərin həyata keçirilməsi nəzərdə tutulurdu. Azərbaycan hökuməti eyni zamanda bildirdi ki, o, mərkəzi hökuməti tanıyır və Azərbaycan muxtariyyətinə zidd olmayan bütün qərar və göstərişləri yerinə yetirəcəkdir. Bu da maraqlıdır ki, sovet işğal qoşunlarının İranda olduğu bütün müddət ərzində İran hökuməti Azərbaycanda baş verən hadisələrə bir daha müdaxilə etmək təşəbbüsündə belə bulunmadı. Əksinə, Təbriz, Ərdəbil, Xoy, Marağa və Azərbaycanın digər yaşayış məntəqələrində olan İran ordu, jandarma və polis qüvvələri ya silahı təhvil verdilər və ya Azərbaycan hökumətinə tabe olduqlarını bildirdilər.

Qısa bir zaman kəsiyində Azərbaycan milli hökuməti çox böyük tədbirlər həyata keçirdi. Aqrar islahat haqqında dekret verildi. Dövlət mülkiyyətində olan və ya bəzi torpaq sahiblərindən müsadirə edilmiş 250 min ha torpaq sahəsi pulsuz olaraq 210 min kəndli ailəsi arasında bölüşdürüldü. Yeri gəlmişkən qeyd etmək istərdik ki, torpaq və su üzərində xüsusi mülkiyyət hüququna toxunulmurdu. İcarəyə götürülmüş torpaqlardan alınan məhsulun bölgüsündə kəndlinin payı artırılırdı. Milli hakimiyyət möhtəkirliyə qarşı mübarizəni gücləndirdi, sənətkarlıq kooperativləri yaradılmasına yaxından yardımçı oldu. 8 saatlıq iş günü, sosial sığorta, tiryəkdən istifadənin və fahişəliyin qadağan olunması haqqında dekretlər verildi.

Milli hökumətin gördüyü ən mühüm tədbirlər içərisində xalq özünü-müdafiə dəstələrinin yaradılması, türk dilinə rəsmi status verilməsi, bu dildə məktəblər açılması, savadsızlığın ləğvi kurslarının təşkili, xüsusilə Təbrizdə Azərbaycan Dövlət Universitetinin yaradılması çox ciddi tarixi hadisələr idi. Mədəniyyətin, səhiyyənin, sosial təminatın və şəhər infrastukturun inkişafına çalışılırdı. Teatrlar, pulsuz xəstəxanalar və ana dilində radio fəaliyyət göstərirdi.

Cənubi Azərbaycanda baş verən hadisələr eyni zamanda Şimali Kürdistanda da təkrar olunurdu. Burada da 1945-ci iln payızında kürd qəbilələrinin başçıları, ruhanilər və ziyalıların iştirakı ilə Kürdüstan Demokrat Partiyası (KDP) yaradıldı. Bu partiya da kürd xalqına muxtariyyət verilməsi, yerli əncumənin (məclisin) yaradılması, kürdlərin inzibati vəzifələrə cəlb olunması və kürd dilində məktəblərin açılması tələblərini irəli sürdü. Az sonra Mehabad şəhərində muxtar hökumət təşkil olundu, kürd özünü müdafiə dəstələrinin yaradılmasına başlanıldı.

Başqa vilayətlər və şəhərlərdə isə İran Xalq Partiyası xüsusi fəallıq göstərirdi. Hər yerdə kəndli ittifaqları yaradılırdı. Onların təzyiqi nəticəsində Gilən, İsfahan, Yəzd və Kerman vilayətlərindəki torpaq sahibləri məhsulun bölüşdürülməsində icarədar kəndlilərin payını xeyli artırır, müxtəlif mükəlləfiyyətləri ləğv edirdilər.

Qeyd etmək lazımdır ki, bütün bunlar İran ərazisindəki sovet hərbi birləşmələrinin komandanlığı tərəfindən açıq-aşkar şəkildə dəstəklənirdi. Sovet İttifaqı rəhbərliyi yeni yaranan milli muxtar dövlətlərə xüsusi önəm verirdilər və belə hesab edirdilər ki, bu proseslər İranda sovet nüfuzunun güclü olaraq qalmasına imkan yaradacaqdır. Haqqında danışdığımız proseslər sovet hərbi qüvvələrinin 1946-cı ilin yayında İrandan çıxarılması tarixinə kimi yüksələn xətt üzrə getmişdir. Elə ki, sovet qoşunları İrandan çıxarıldı, hər şey alt-üst oldu və bundan da Azərbaycan türkləri və kürdlər dəhşətli zərbələr aldılar.

1946-cı ilin əvvəlində istefa verən Hakimi hökuməti yeni baş nazir təyin olunan Qəvvam əs-Səltənənin təşkil etdiyi hökumətlə əvəz olundu. Hakimiyyətə gəldiyi ilk gündən Qəvvam əs-Səltənə öz opponentlərinə, xüsusilə Azərbaycandakı və Kürdüstandakı qüvvələrə qarşı hər hansı şəkildə mübarizənin dayandırılması və Sovet Ittifaqı ilə normal münasibətlər tərəfdarı olmasını bəyan etdi. 1946-cı ilin 4 aprelində Tehranda Şimali İrandakı (oxu: Cənubi Azərbaycandakı-müəl.) neft yataqlarının kəşfi və istismarı üzrə birgə sovet-iran cəmiyyətinin yaradılması haqqında saziş

imzalandı. Bunu ardınca 1946-cı ilin 13 iyununda Qəvvam əs-Səltənə hökuməti və Azərbaycan Milli hökuməti arasında saziş bağlandı. Sazişə görə Milli Məclisin Azərbaycan əyalət əncuməni (məclisi) və Azərbaycan hökumətinin inzibati şura adlandırılması şərti ilə Şimali Azərbaycanda keçirilən bütün islahatlar saxlanılmalı idi.
Qəvvam əs-Səltənə hökumətinin atdığı mühüm addımlardan biri də o oldu ki, bütün İran üzrə dövlət torpaqlarının pulsuz olaraq kəndlilər arasında bölüşdürülməsi, məhsul bölgüsündə icarədar kəndlilərin payının 15% artırılması rəsmi şəkildə bəyan edildi. Qəvvam əs-Səltənə bildirdi ki, onun hökuməti demokratik islahatlar keçirilməsində maraqlıdır və antisovet xarici siyasətə son qoyacaqdır.
Ölkədə ağır həyat şərtlərinə qarşı etirazları səngitmək üçün 1946-cı ilin ortalarında əmək haqqında qanun qəbul edildi. Qanuna görə həftəlik iş günü 48 saatdan artıq ola bilməzdi, artıq iş vaxtı üçün əlavə əmək haqqı ödənilməli idi. İşçilərə hər həftə üçün istirahət günü və hər il üçün isə məzuniyyət verilirdi. Sosial mübarizənin genişlənməsindən yararlanmaq cəhdləri göstərən İran Xalq Partiyasının (Tudənin) 3 nümayəndəsi konyunktur məqsədlərlə hökumətin tərkibinə gətirildi.
Təbiidir ki, Qəvvam əs-Səltənə hökumətinin bütün bu tədbirləri müvəqqəti zaman üçün edilirdi, millətçi-istiqlalçı və digər siyasi qüvvələri hələlik bir azacıq da olsa zərərsizləşdirmək məqsədi daşıyırdı, onun əsl si-yasi xəttinin hazırlanması və həyata keçirilməsinin zəmini qoyurdu. Elə bunun ilk göstəricisi idi ki, o, 1946-cı ilin iyununda İran Demokrat Partiyasını yaratdı və hakim sinfin içərisindən olan bütün tərəfdarlarını orada topladı. Məhz həmin partiya da güc strukturlarının yaxından iştirakı ilə Qəvvam əs-Səltənənin siyasi rəqiblərinə qarşı bütün ölkəboyu hücumlara başladı.
Bununla yanaşı Sovet İttifaqının ölkənin şimalında - Azərbaycan və Kürdüstanda dəstək verdiyi qüvvələrə adekvat olaraq Böyük Britaniya da ölkənin cənubunda - Xuzistanda öz imkanlarını səfərbər etdi, burada Xuzistan Qəbilələrinin İttifaqı adlı təşkilat yaradıldı. Bu təşkilat Xuzistanın İrandan ayrılması tələbini irəli sürürdü və belə bir bəhanə gətirirdi ki, Azərbaycanda və Kürdüstanda yaranmış hakimiyyətlər İranın parçalanması məqsədi güdür. İran dövləti bu "seperatçılıq" hərəkətlərinə son qoymur və biz də etiraz olaraq həmin addımı atmaq zorunda qalmışıq. Tarixi ədəbiyyatda daha çox "Cənub hərəkatı" adı ilə tanınan bu təşkilatda birləşən qüvvələrin əsl məqsədi isə həmin bəhanə ilə mərkəzi hökumətin şimaldakı istiqlalçı qüvvələrə qarşı mübarizəyə başlanmasına əsas vermək idi. Onlar hökumətdə tudəçilərin iştirakına qarşı da çıxırdılar.
Böyük Britaniya İranın cənubunda baş verən bu hadisələri nəzarətdə saxlamaq üçün öz hərbi gəmilərini Abadan və Xürrəmşəhr limanlarına gətirdi. Bəsrə rayonunda İran sərhədlərinə yaxın əraziyə bir neçə ingilis diviziyası yerləşdirildi. Bunu bəhanə edərək neft mədənlərinin işçiləri kütləvi nümayişlərə başladı. Bu aksiyanın arxasında isə tudəçilər dayanırdılar. 1949-cu ilin 16 iyulunda Qəvvam hökuməti neftçilərin bu nümayişlərini qeyri-qanuni saydı. Xuzistanda hərbi vəziyət elan olundu və sakitlik yarandı.
Bu, Qəvvam əs-Səltənənin ilk uğuru idi və indi o, artıq digər siyasi qüvvələrə, ilk növbədə Azərbaycan və Kürdüstan demokratlarına qarşı qəti mübarizə anının gəldiyini hiss edirdi. Belə bir vaxtda payızda (sentyabr ayında) Qəvvam əs-Səltənəni dəstəkləyən Cənubi İran qəbilələri başçılarının hərbi qüvvələri hərəkətə gəldi və Kazerun, Buşir və digər şəhərləri tutdular. Narazı qüvvələrə qarşı cəza tədbirləri tuğyana başladı. Cənubi İran qəbilə başçıları Azərbaycan və Kürdüstanda "qayda-qanun yaradılması üçün" oraya hökumət qoşunlarının yeridilməsini tələb edirdilər. Qəvvam əs-Səltənənin "milli hərəkat" adlandırdığı bu hadisələrin təşkilatçıları öz hərəkətlərin "İranın istiqlaliyyətini və ərazi bütövlüyünü qorumaq" istəyi ilə bağlayırdılar.
Bütün bunlardan sonra, -həm də bu vaxt sovet orduları da İrandan çıxarılmışdı Qəvvam əs-Səltənə qəti hücuma başladı, tudəçiləri hökumətdən uzaqlaşdırdı. Artıq 1946-cı ilin sonunda (dekabrın 10-da) isə "məclisə azad seçkilər keçirilməsini təmin etmək" bəhanəsi ilə İran orduları Azərbaycana yeridildi, Təbriz və digər şəhərlər tutuldu. İstiqlalçı-demokrat qüvvələrə sarsıdıcı zərbələr vuruldu.

Azərbaycan hökuməti yıxıldı, minlərlə insan güllələndi, dar ağacından asıldı və öldürüldü. Çoxları ölkədən çıxmağa məcbur oldu. Sonra İran orduları Kürdüstana yeridi və kürd demokratlarına da eyni divan tutuldu. Bütün İran üzrə sol təmayüllü qüvvələrə qarşı təqiblər başlandı. Həmkarlar təşkilatları və Xalq partiyasının qərargahları dağıdılır, qəzet və jurnallar bağlanırdı. Kütləvi həbslər həyat normasına çevrilmişdi. Bu cür ağır və mürəkkəb vəziyyətdə 1947-ci ilin əvvəlində İran məclisinə seçkilər keçirildi. Məclis 1947-ci ilin 22 oktyabrında Qəvəm əs-Səltəninin təklifi ilə irəlidə haqqında danışılan sovet-iran sazişinin qeyri-qanuniliyi haqqında qərar qəbul etdi. Buna da səbəb o gətirilirdi ki, 1944-cü il 2 dekabr tarixli qanuna əsasən hökumət neft konsessiyası vermək hüququndan məhrum edilmişdi.

Təbiidir ki, İran tərəfindən belə bir qərarın qəbul edilməsi çox riskli bir addım idi və bu addımın atılmasında ABŞ-ın mövqeyi böyük rol oynamışdır. Belə ki, hələ məsələ məclisə gətirilməmişdən əvvəl ona qarşı İran ictimaiyyətinin mənfi münasibəti bilinirdi. Odur ki, Sovet İttifaqı İrana təzyiqləri gücləndirirdi. ABŞ yaranmış vəziyyətdən yararlanmaqda qətiyyətli oldu və məsələ ilə bağlı öz mövqeyini açıqladı. 1947-ci ilin 22 sentyabrında ABŞ hökuməti bildirdi ki, neft sazişinin rədd edilməsi səbəbindən İran gözlənilməyən nəticələrlə qarşılaşarsa ABŞ bu ölkənin torpaq bütünlüyünü qoruyacağına təminat verir. ABŞ-ın bu sərt mövqeyi Sovet İttifaqını onunla üz-üzə gəlməkdən çəkindirdi və Sovet İttifaqı baş vermiş faktla razılaşmaq zorunda qaldı.

Qəvvam əs-Səltənə hökuməti də ABŞ ilə yaxınlığa yönəli kurs götürdü. Lakin bu kurs Qəvvam əs-Səltənənin hakimiyyətini möhkəmləndirə bilmədi. Artıq 1947-ci ilin sonlarında o, parlamentdəki tərəfdarlarının çoxunu itirmişdi. Elə bu da Qəvvam əs-Səltənə hökumətinin yıxılmasına gətirdi.

* * *

.

## İran (1950-77)

İranda ABŞ-ın mövqeyinin möhkəmlənməsi, neft sənayesinin milliləşdirilməsi uğrunda mübarizə

İrəlidə haqqında danışdığımız bütün hadisələr İranda ABŞ-ın öz mövqelərini möhkəmləndirmək uğrunda mübarizəsinin uğurla başa çatdırılmasına münbit şərait yaratdı. 1947-ci ilin oktyabrında İranda ABŞ hərbi missiyasının fəaliyyəti haqqında İran-ABŞ sazişi bağlandı. Sazişə görə İran ordusunda yüksək vəzifələrdə çalışmaq hüququ yalnız ABŞ hərbi müşavirlərinə verilirdi. İran ordusu ABŞ silahı ilə silahlandırılırdı. 1950-ci ilin 23 mayında bağlanan ikinci saziş isə İrandakı ABŞ hərbçilərinin sayının və buraya göndərilən silahların miqdarının iki dəfə artırılmasını nəzərdə tuturdu. ABŞ mütəxəssisləri İranda aerodromlar, hərbi-dəniz bazaları, strateji yollar və digər hərbi obyektlər inşa etdilər.

Təbiidir ki, ABŞ-ın bu ölkədə hərbi və iqtisadi mövqelərinin get-gedə möhkəmlənməsi Böyük Britaniyanın maraqlarına toxunmaya və onu narahat etməyə bilməzdi. O biri tərəfdən Qəvvam əs-Səltənə İngiltərə-İran Neft Kompaniyası (İİNK) ilə əlaqədar bəzi məsələlərə yenidən baxılması haqqındakı niyyətlərini də dilə gətirməyə başlamışdı. Heç şübhəsiz ki, bu niyyətlərin dilə gətirilməsi ABŞ tərəfinin razılığı ilə qarşılanacağını hamı bilirdi. Elə buna görə də ingilislər Qəvvam əs-Səltənəni hakimiyyətdən uzaqlaşdırmaq üçün mübarizəyə başladılar. Bu məsələdə şah özü də maraqlı idi. O, Qəvvam əs-Səltənənin bütün hakimiyyəti öz əlinə alacağından çox ehtiyatlanırdı. İngilislər və şah istəklərinə nail ola bildilər və 1947-ci ilin 10 dekabrında Qəvvam əs-Səltənəni istefaya göndərməyi bacardılar. Baş nazir vəzifəsinə ingilispərəstliyi ilə tanınan İ.Həkimi gətirildi. Onun ilk tədbirlərindən biri İran Demokrat Partiyasının bağlanması oldu. Ümumiyyətlə isə 1951-ci ilin may ayına qədər ömür sürmüş bütün hökumətlərin (İ.Həkimidən sonra baş nazir vəzifəsini 1948-ci ilin

sonlarında Məhəmməd Səid Marağai, 1950-ci ilin 27 iyunundan general Əli Razmara yerinə yetirmişdir) əsas fəaliyyəti İranın ABŞ və Böyük Britaniya ilə əməkdaşlığına önəm vermək və bu zəmində ölkənin inkişafına nail olmağa yönəlmişdi. Bu baxımdan İ.Həkimi hökuməti öz sələfindən az fərqlənirdi. İrəlidə haqqında söhbət açılan İran-ABŞ hərbi əməkdaşlığı sahəsində bağlanan sazişlər fikrimizi təsdiq edir. Elə həmin arada 1948-ci ilin mayında İrana 10 mln dollar məbləğində ABŞ-ın borc verməsi eyni məqsəd daşıyırdı. Borc silah alınması üçün verilirdi və o, faktik olaraq İranın Trumen doktrinasına qoşulması demək idi.

İran ABŞ-la təkcə hərbi sahədə yox, həm də iqtisadi sahədə də işbirliyini genişləndirirdi. Bəlli olduğu kimi II dünya müharibəsindən sonrakı illərdə İran iqtisadiyyatının durumu kifayət qədər ağır idi. İxracatın həcmi azalmış, rialın dəyərdən düşməsi və qiymətlərin artması xroniki hal almış, əhalinin əksər hissəsinin real gəlirinin səviyyəsi aşağı düşmüşdü. Bu zəmində narazılıq artır, müxtəlif etiraz aksiyaları baş verirdi. "Fədayan-e islam" təşkilatının üzvləri hətta bir sıra terror aktları törətdilər (o, cümlədən 1949-cu ildə şaha qarşı sui-qəsd təşkil olunmuşdu-müəl.).

Yeni hökumət iqtisadi həyatda yaranmış neqativ ənənələrin aradan qaldırılması üçün 1948-ci ildə iqtisadiyyatın inkişafı və bərpa edilməsi üzrə uzunmüddətli plan qəbul etdi. Planın hazırlanmasında ABŞ ekspertləri də iştirak etmişdilər.

Təbiidir ki, planın həyata keçirilməsi böyük miqdarda vəsait tələb edirdi. Məhz həmin səbəbdən də hökumət, eləcə də bir sıra siyasi qüvvələr İİNK ilə münasibətlərə yenidən qayıtmaq, hətta əvvəlki müqavilələri təzələmək zərurətini dilə gətirməyə məcbur oldular. 1947-ci ilin 22 oktyabrında məclis qərar qəbul etdi ki, "İran hökuməti xalqın cənub neftinə olan hüququnu onun özünə qaytarmalıdır." 1948-ci ilin sentyabrından İran nümayəndə heyətinin rəhbəri nəzərdə tutulan iddiaları İİNK-ın nümayəndəsinə təqdim etdi.

İran iş adamlarının da böyük bir qismi daxili bazarın və ümumiyyətlə ölkənin hərtərəfli inkişafı baxımından neft sənayesinin milliləşdirilməsini qəti şəkildə tələb etməyə başladılar. Onların mövqeyini İran ziyalıları, ticarətçilər və sənətkarlar, həmçinin nüfuzlu şiə ruhaniləri müdafiə etdilər. Bütün bunlar onunla nəticələndi ki, həmin qüvvələr bir araya gəlib siyasi blok təşkil etdilər. Blok Milli Cəbhə adlanırdı, bir siyasi təşkilat olaraq 1949-cu ilin payızında yaranmışdı. Bəlli olduğu kimi həmin dövrdə məclisə seçkilər kampaniyası gedirdi və blokun yaranmasında bu amilin də rolu az deyildi. Milli Cəbhənin başında doktor Müsəddiq (1879-1967) dururdu. O, İranın müstəqil xarici siyasət yeritməsi uğrunda çıxış edirdi, şahın və sarayın hüquqlarının genişləndirilməsinin əleyhinə idi, şaha edilən sui-qəsd cəhdindən sonra kütləvi represiyaların dayandırılmasını tələb edirdi.

Yeri gəlmişkən qeyd etmək istərdik ki, İİNK ilə bağlı kampaniyanın genişlənməsini qabaqlamaq, ən azı bu kampaniyanı müəyyən qədər zəiflətmək məqsədi ilə ingilislər də 1949-cu ildə "əlavə saziş" adlanan bir sənəd hazırladılar. Sənəddə İİNK-ın əldə etdiyi gəlirlərdən İrana düşəcək payın artırılması nəzərdə tutulurdu. Lakin məclis 1949-cu ilin iyulunda "əlavə saziş"i təsdiq etmədi. Onu da qeyd edək ki, məclisin belə qərar verməsində amerikalıların da iştirakı olmuşdur. Əslində isə neft məsələsi ətrafında yaranmış bu vəziyyətin kökündə həm də İranda nüfuz sahibi olmaq uğrunda ABŞ və Böyük Britaniya arasında gedən mübarizə dayanırdı. ABŞ neft amilindən Böyük Britaniyaya bir təzyiq vasitəsi kimi istifadə edirdi.

Ümumiyyətlə həmin dövrdə istər İranın öz daxilində, istərsə də onunla bağlı xaricdə baş verən proseslər Milli Cəbhənin fəaliyyət imkanlarını genişləndirdi. 1949-1953-cü illərdə bu təşkilatın özəyini "Vətən" partiyası təşkil etsə də, müxtəlif görüşlü bir sıra ictimai və siyasi xadimlər də ona daxil olmuşdu. Milli Cəbhənin siyahısı ilə məclisə girənlər arasında "Mücahidan-e islam" təşkilatının yaradıcısı Kaşani, Demokrat Partiyasının bəzi görkəmli üzvləri, hətta İran Kommunist Partiyasının keçmiş üzvü də var idi. Onların hamısını isə bir istək birləşdirirdi: İran müstəqil daxili və xarici siyasət yeritməlidir, İİNK-ın milliləşdirilməsi ölkənin müstəqil inkişafının əsas şərti ola bilər. Elə

sonuncu tezisdən çıxış edərək doktor Müsəddiq cənub neft yataqları üzərində İranın hüquqlarının bərpa edilməsini Milli Cəbhənin əsas proqram maddələrindən biri etmişdi. O bəyan edirdi ki, neftdən əldə olunan gəlirlərlə biz bütün ehtiyaclarımızı ödəyə bilərik, ölkəmizin milyonlarla insanının qisməti olan yoxsulluğa, cəhalətə və xəstəliklərə son qoya bilərik, İİNK-ın ləğv olunması imperializmin İranda əsas silahının ləğvi olardı, ölkəyə iqtisadi və siyasi müstəqillik qazanmaq imkanı verərdi. Nəhayət, 1951-ci ilin 19 fevralında Müsəddiq neft sənayesinin milliləşdirilməsi haqqında qanun layihəsini məclisə təqdim etdi. Həmin dövrdə ingilislərin hazırladığı "əlavə sazişin" müzakirəsi də məclisin gündəliyinə çıxarılmışdı. Bu məsələ ehtirasları yenidən qızışdırdı. İş o yerə çatdı ki, texniki, iqtisadi və siyasi səbəblərdən neft sənayesini milliləşdirməyin mümkünsüzlüyünü söyləyən və "əlavə sazişin" təsdiq edilməsi lehinə təkidli çıxış edən baş nazir Əli Razmara martın 7-də öldürüldü. Nəhayət, müəyyən müzakirələrdən sonra aprelin 26-da Müsəddiqin təqdim etdiyi qanun layihəsi təsdiqləndi və üç gündən sonra onun özü isə baş nazir təyin olundu. Şah sarayının açıq-aşkar əngəllərinə baxmayaraq Müsəddiq 1953-cü ilin avqustuna qədər baş nazir kimi fəaliyyətini davam etdirdi.
Qeyd etmək lazımdır ki, əgər neft sənayesinin milliləşdirilməsi haqqında qanunun qəbul edilməsinə qədər bu məsələ İİNK və İran dövləti arasında müzakirə mövzusu idisə, bundan sonra Böyük Britaniya hökuməti işə qarışmağa başladı. İİNK-ın əmlakının İran dövlətinin mülkiyyətinə keçməsi sahəsində edilən cəhdlər Böyük Britaniya hökumətinin ciddi təzyiqi ilə qarşılandı. Beynəlxalq Neft Konsorsiumunun (BNK) üzvü olan digər dövlətlər də Böyük Britaniya hökuməti ilə həmrəy oldu. Bəlli olduğu kimi, az qala bütün neft satışı bazarları və neft daşıyan tankerlərin çox böyük hissəsi BNK-nın nəzarətində idi. BNK milliləşdirmə planının həyata keçirilməsindən İran dövlətinin imtina etməsinə nail olmaq üçün İran neftinin satılması və daşınmasını blokadaya aldı. Bu da onsuz da iqtisadiyyatı ağır olan İranı daha ciddi sınaqlar qarşısında qoydu: ölkəyə gələn xarici valyutanın məbləği xeyli azaldı, sənaye və ərzaq məhsulları idxalının böyük ixtisarı ölkədə kəskin böhran vəziyyəti yaratdı.
Milli Cəbhə rəhbərliyi yaranmış durumdan necə çıxmaq məsələsində ciddi çətinliklərlə üz-üzə qalmışdı. Məsələnin həllində yekdil fikir yox idi. Bir qrup belə hesab edirdi ki, qəti hərəkət və cəsarət göstərmək lazımdır. Onlar blokadanı yarmaq üçün nefti sosialist ölkələrinə satmağı və hətta Sovet İttifaqı ilə yaxınlaşmağı məsləhət bilirdilər. Digərləri isə, Yaxın və Orta Şərqdə mövcud olan ABŞ və Böyük Britaniya rəqabətindən yararlanmağa üstünlük verir, amerikalılarla işbirliyi qurub, onların ingilislərlə bir mövqedən çıxış etməsinə mane olmaq haqqında düşünürdülər. Müsəddiqin özünə gəlincə, o, ümumiyyətlə ölkədə siyasi və sosial gərginliyin artmasından çəkinirdi və Sovet İttifaqı ilə yaxınlaşmaya qarşı idi. Bununla belə o, bir sıra qəti addımlar da atmaqdan çəkinmədi: Böyük Britaniya ilə diplomatik münasibətləri kəsdi, dövlət strukturlarında, orduda və polisdə dövlət qərarlarının icrasını pozan bütün şəxsləri tutduqları vəzifələrdən uzaqlaşdırdı.
Belə bir vaxtda ABŞ vasitəçilik funksiyasını öz üzərinə götürdü, İran və Böyük Britaniya arasındakı ziddiyyətlərin tənzimlənməsi üçün 1951-ci ilin iyulundan başlayaraq bir sıra təşəbüsslər göstərdi. ABŞ prezidenti Trumenin nümayəndəsi Harriman Tehrana gəldi ki, tərəfləri ortaq bir razılığa gətirsin. ABŞ Böyük Britaniyanı silahlı təcavüzdən çəkinməyə çağırmaqla yanaşı Müsəddiqə də təkidlə məsləhət görürdü ki, məsələnin həllini hər ikisi, yəni həm İran, həm də Böyük Britaniya birlikdə düşünüb tapsınlar. Xüsusi elçi Harriman İranı inandırmağa çalışırdı ki, əgər tərəflər arasında razılıq əldə edilməzsə, İran öz neftini müstəqil şəkildə dünyaya çıxara bilməyəcəkdir. Lakin ABŞ-ın cəhdləri də uğurlu sonluqla nəticələnmədi. Çünki İİNK İran neftinin satışı üzərində inhisarı öz əlində saxlamaq istəyirdi. Qarşı tərəf bunu qəbul etmədi. İran yalnız bəlli bir miqdarın satış hüququnu şirkətə vermək, qalanını özü satmaq istəyirdi.
Böyük Britaniya isə məsələnin həllini bir tərəfdən onu Haaqadakı Beynəlxalq məhkəməyə gətirməkdə

görürdüsə, o biri tərəfdən hərbi təzyiq göstərməkdən də çəkinmirdi. Hətta bu məqsədlə İran sularına xeyli sayda əsgərlə birlikdə öz hərbi gəmilərini göndərmişdi. O, eyni zamanda açıq hərbi müdaxilədən də qorxurdu. Bilirdi ki, belə bir təşəbbüs 1921-ci il sovet-iran müqaviləsinə görə Sovet İttifaqına bu məsələyə qarışmaq haqqı qazandırardı. Ancaq Böyük Britaniya İran neftinin satışını blokadaya ala bildi. Hətta İran neftini kiçik miqdarda almağı davam etdirən İtaliya və Yaponiya hökumətlərinə Beynəlxalq Neft Konsorsiumu vasitəsilə təzyiq göstərib onları geri çəkilməyə məcbur etdi.

Beləliklə də yaranmış mübahisəli vəziyyət kəskin olaraq qalmaqda davam edirdi. 1951-ci ilin oktyabrında ABŞ və Böyük Britaniya məsələsini BMT Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarmaq qərarına gəldi. Onlar təklif edirdilər ki, İran nefti "beynəlxalq" bir şirkətin sərəncamına verilsin. Müsəddiq bu təklifi də qəbul etmədi və eyni zamanda bildirdi ki, İran neftinin milliləşdirilməsi onun dövlətinin daxili işidir və bu məsələnin həlli Təhlükəsizlik Şurasının səlahiyyətində deyildir. Belə olduqda İrana qarşı iqtisadi və siyasi təzyiqlər daha da artırıldı. Şah 1952-ci ilin iyulunda Müsəddiqi baş nazir vəzifəsindən götürüb onun yerinə Qəvvam əs-Səltənəni gətirdi. Lakin şahın bu tədbiri ölkədə böyük narazılıqla qarşılandı. İranın hər yerində müxtəlif etiraz aksiyaları keçirildi. Polis və ordu işə qarışdı, qan töküldü. Nəticədə, iyulun 21-də Qəvvam əs-Səltənə istefa verdi və Müsəddiq yenidən baş nazir vəzifəsinə gətirildi. Müsəddiqin qələbəsində onun tərəfdarlarının 1952-ci ilin mayında məclisə keçirilən seçkilərdə yerlərin böyük əksəriyyətini qazanması faktı mühüm rol oynamışdır. Lakin iyul hadisələrindən sonra onların arasında güclü parçalanma baş verdi. Sağ millətçilər və klerikallar ayrıldılar və Müsəddiqə qarşı olan qüvvələrə qoşuldular. Tudəçilər onu "amerika imperializmi" ilə sövdələşməyə getməkdə ittiham edirdilər. Elə ABŞ-ın özü də Müsəddiqlə münasibətlərinə düzəliş etməli oldu. Dövlət departamentinin yeni rəhbəri Con Foster Dalles İrana qarşı münasibətdə Böyük Britaniya ilə razılaşdırılmış kurs tərəfdarı kimi çıxış edirdi. Odur ki, Müsəddiq daha qəti addım atmaq qərarına gəldi. O, 1953-cü ilin fevralında şahı taxtdan uzaqlaşmağa məcbur etdi və şah da onun tələbini qəbul etmək zorunda qaldı. Müsəddiq bununla da İranda bütün hakimiyyəti öz əlində toplamış olurdu. Lakin həmin andan da işlər qarışmağa başladı. Belə ki, şahın taxtdan uzaqlaşdırılması və sonra da ölkədən çıxaraq Romaya getməyə məcbur olması bir yandan hərbçiləri hərəkətə gətirdi, o biri yandan klerikalların lideri Kaşaninin də açıq şəkildə Müsəddiqin əleyhinə getməsinə səbəb oldu. Bu həm də ondan irəli gəlirdi ki, Müsəddiq get-gedə radikal solçularla, ilk növbədə tudəçilərlə əlbir olurdu, onların nəzarəti altına keçirdi.

Həmin dövrdə ABŞ yenə də Müsəddiqə təsir göstərirdi ki, Böyük Britaniya ilə danışıqlara getsin. Lakin o, inadkarlığından əl çəkmədi. Bu səbəbdən də ABŞ Müsəddiq hökumətini dəstəkləmək kursundan geri çəkildi. O biri tərəfdən müxalifət qüvvələri də Müsəddiq hökumətinə qarşı açıq çıxışlara başlamışdılar. 1952-ci ilin axırlarında ölkənin müxtəlif yerlərində etiraz aksiyaları baş verirdi. Hətta Milli Cəbhənin öz daxilində də Müsəddiqdən narazılıqlar artmaqda idi. 1953-cü ilin 16 oktyabrında Böyük Britaniya ilə diplomatik münasibətlərin kəsilməsi haqqında Müsəddiqin açıqlama verməsi və bunun ardınca ölkədə yaranmış vəziyyətin səbəbini şahın adı ilə bağlaması, mitinqçilərə qarşı silah işlədilməsində şahı ittiham etməsi isə siyasi gərginliyin kulminasiyası oldu.

Bu səbəbdən də general Zahidinin başçılığı altında 1953-cü ilin 19 avqustunda hərbçilərin təşkil etdiyi dövlət çevrilişi uğurla nəticələndi. Müsəddiq hakimiyyətdən salındı və həbs edildi. Üç gün sonra isə şah ölkəyə qayıtdı.

General Zahidi baş nazir təyin olundu. O, neftlə bağlı bütün mübahisələrin həlli üçün ABŞ-ın vasitəçiliyinə önəm verdi. ABŞ da buna müsbət cavab verdi. 1953-cü ilin dekabrında Böyük Britaniya ilə diplomatik münasibətlər bərpa olundu. İİNK və ABŞ neft şirkətlərinin nümayəndələrindən ibarət bir komissiya yaradıldı. Həmin komissiya ilə İran arasında 1954-cü ilin 5 avqustunda müqavilə

imzalandı. Onun şərtlərinə görə yeni yaradılmış konsorsiumun üzvlərinin payı aşağıdakı qaydada bölüşdürüldü: İİNK 40 %, Hollandiyanın Şell şirkəti 16 %, fransız neft şirkəti 6 %, beş ABŞ şirkətinin də hər biri 8 %-ə sahib oldu. İran neftinin hasilatı və satışı bundan sonra həmin şirkətlər tərəfindən birlikdə həyata keçiriləcəkdi. Konsorsium da öz öhdəsinə götürürdü ki, neft istehsal olunan qonşu ölkələrdə olduğu kimi xam neftin satışından əldə edilən gəlirin yarısı İrana çatacaqdır.
Bütün bunların nəticəsində İranda, nisbi də olsa, bir sakitlik yarandı. Həmin vaxtdan etibarən Qərb dövlətləri ilə, ABŞ-la hərbi, iqtisadi və mədəni sahələrdə daha sıx əməkdaşlıq kursuna önəm verildi. İran 1955-ci ilin 11 oktyabrında Bağdad paktına (pakt 1959-cu ildən SENTO adlanırdı-müəl.) qoşuldu, 1957-ci ildə isə "Eyzenhauer doktrinası"nı tanıdı. Bəlli olduğu kimi, həmin doktrinaya görə ABŞ Yaxın və Orta Şərq ölkələrinə qoşun göndərmək hüququna malik idi. 1959-cu ilin 5 martında İran və ABŞ arasında ikitərəfli hərbi saziş imzalandı.
İran öz ordusunu yenidən qurmaq üçün ABŞ-dan çoxlu miqdarda yardımlar aldı. ABŞ-ın köməyi ilə ölkədə aerodromlar, strateji yollar, hərbi bazaların inşası genişləndirildi. 1955-ci ildə xarici investisiyaların təşviq edilməsi haqqında, 1958-ci ildə isə xarici banklar üçün məhdudiyyətlərin ləğv edilməsi haqqında qanunlar qəbul olundu. Bu da imkan verdi ki, yüzlərlə ABŞ, Böyük Britaniya, Fransa, Qərbi Almniya, Yaponiya və s. şirkəti və bankı ölkədə fəaliyyətə başlasın. Demək mümkündürsə, İran "açıq qapılar" siyasəti yeridirdi. Bu da öz müsbət nəticələrini göstərdi. İran iqtisadiyyatı müəyyən uğurlar qazandı. Ancaq, təbiidir ki, illərlə pozulmuş, dağılmış və bərbad hala düşmüş iqtisadiyyatın bütün problemlərini qısa zaman kəsiyində həll etmək mümkün ola bilməzdi. İstər iqtisadi, istər siyasi, istərsə də sosial sahədə hələ çoxlu problemlər qalırdı ki, onlar da öz həllini gözləyirdi.

## 60-cı illərin islahatları

İranın 50-ci illərin sonu-60-cı illərin əvvəli tarixi ölkədə sosial və siyasi tələblər irəli sürən etirazların canlanması ilə xarakterikdir. İqtisadi və sosial çətinliklər zəminində istər şəhərdə, istərsə də kənddə müxtəlif formalı etiraz aksiyaları baş verirdi. 1960-cı ilin sonlarında Mazandaran, Gilan, Azərbaycan və mərkəzi əyalətlərdə kəndli hərəkatı artmışdı. Ordu və polisin gücü ilə, hətta bəzən silaha əl atılması və günahsız insanların öldürülməsi yolu ilə bu tətil və nümayişlər yatırılırdısa da, onlar təsirsiz qalmırdılar. Siyasi həyatda gərginliklər yaranır və hakimiyyət ciddi sınaqlarla üzləşirdi. Məclisə keçirilən seçkilər saxtakarlıqlar üzündən xalqın tələbi və təzyiqi ilə iki dəfə -1960 və 1961-ci illərdə şah tərəfindən ləğv edildi. 1960-1962-ci illərdə siyasi stabilsizliq nəticəsində bir neçə dəfə hökumət dəyişikliyi baş vermişdi. Ölkədə yaranmış bu gərginlikləri aradan qaldırmaq bir tarixi zərurətə çevrilmişdi. Əgər əvvəllər ölkə məsələləri ilə bilavasitə parlament və hökumət məşğul olurdusa, bu dəfə təşəbbüsü şah öz üzərinə götürdü.
Ümumiyyətlə qeyd etmək lazımdır ki, 1953-cü il çevrilişinin nəticələrindən biri şahın hakimiyyət səlahiyyətlərinin gücləndirilməsi olmuşdur. Həmin vaxtdan etibarən şah Məhəmməd Rza ölkənin daxili və xarici siyasət kursunun müəyyənləşdirilməsində mühüm və bəlkə də əsas rol oynamağa başlamışdı. Şah bütün fəaliyyətini ona yönəltməyə çalışırdı ki, İran bölgənin aparıcı dövlətinə çevrilsin. Lakin onu da bilirdi ki, xalqın maddi və mənəvi durumunun aşağı olduğu şərtlər zəminində bu istəyi reallaşdırmaq mümkünsüzdür. Təbiidir ki, ilk növbədə bu problemin həlli bir zərurət idi və onun üçün yollar axtarılırdı. Elə bu səbəbdən idi ki, 50-ci illərin ortalarından başlayaraq şahın ətrafında tez-tez yeni siyasi xadimlər görünməyə başlamışdı. "Texnokrat" və "qərbyönümlü" adlandırılan bu şəxslər İran cəmiyyətinin sosial-iqtisadi, siyasi və mədəni dayaqlarını yenidən qurmağa qadir olacaq dəyişikliklər proqramı hazırlayır və şaha təqdim edirdilər. Onlar belə hesab edirdilər ki, həmin dəyişikliklər ölkənin müasir təməllər əsasında inkişafını təmin edə bilər və İranın

müasir kapitalist dünyası ilə inteqrasiyası mümkün olar. Onlar həm də hesab edirdilər ki, belə bir inkişaf kursu yetişməkdə olan sosial partlayışların qarşısını da ala bilər. Həmin dövrdə baş verən sosial və siyasi etiraz aksiyalarına yuxarıda toxunulmuşdur.Əlavə etmək lazımdır ki, SAVAK-ın (İran təhlükəsizlik və informasiya idarəsi, 1957-ci ilə yaradılmışdır-müəl.) bütün repressiv tədbirlərinə baxmayaraq siyasi həyatda müxalifət təşkilatlarının, xüsusilə də Milli Cəbhənin fəaliyyətində xalqın rəğbətlə qarşıladığı bir canlanma var idi.
"Texnokratların" ideyaları şah tərəfindən dəstəkləndi və o, həmin ideyalara xalqın münasibətini bildirməsi üçün 1963-cü ilin 23 yanvarında altı qanun layihəsi üzrə referendum keçirilməsinə qərar verdi: 1)torpaq islahatı, 2) meşələrin milliləşdirilməsi, 3) torpaq islahatının maliyyələşdirilməsi üçün dövlət fabrik və zavodlarının satılması, 4) müəssisələrin gəlirlərində fəhlələrin iştirakı, 5) parlamentə seçkilər haqqında qanunun dəyişdirilməsi və nəhayət, 6) savadsızlığa qarşı mübarizə üçün "maarif korpusu"nun yaradılması.
Qeyd etmək istərdik ki, 1963-cü il mayında qadınlara da kişilərlə bərabər seçki hüququ verildi. Sonralar isə yuxarıda sadalanan altı islahat qanununa daha altısı da əlavə olundu. Bunlardan ən mühümləri "tətbiq etmə korpusu"nun (mütərəqqi metodların kənd təsərrüfatına tətbiqi), kənddə yerli dava-dalaşlara baxmaq üçün ictimai məhkəmələrin, "səhiyyə korpusu"nun yaradılması, su mənbələrinin milliləşdirilməsi və s. idi. İslahatlar və onunla bağlı həyata keçirilən tədbirlər İranda "ağ inqilab" adı ilə məhşur olmuşdur.
İslahatların həyata keçirilməsinə aqrar sahədən başlanıldı. Bu, təsadüfi deyildi. Çünki, İran kəndində hələ də kapitalizmə qədərki müsibətlər hakim idi və bu hal ölkədə kapitalist təsərrüfat tərzinin inkişafına ciddi əngəl törədirdi. Böyük torpaq sahibliyinin olduğu bir şəraitdə İranda iki mln-a yaxın adam torpaqsız idi. İslahatın keçirilməsi isə imkan verirdi ki, ərzaq məhsulları və sənaye üçün aqrar xammal istehsalı artırılsın, bununla yanaşı xırda və orta əkinçilərin və torpaq sahiblərinin sayı artsın. Təbiidir ki, sonuncular kənd bölgələrində monarxiyanın sosial dayaqları olurdular. Onu da qeyd edək ki, aqrar islahatın keçirilməsi on ilə qədər vaxt aldı. Yeni aqrar qanunvericiliyi üzrə sənədlər hələ 1960-cı ildə məclisdə qəbul edilmişdi. Sonrakı illərdə onun üzərində xeyli işlənildi və sonuncu variant aqrar islahat formasında 1963-cü ildə ümumxalq referendumuna təqdim edildi. İslahata görə iri torpaq mülkiyyəti məhdudlaşdırılmalı, onun son həddi 500 ha-dan artıq olmamalı idi. Həm də bu zaman mülk sahibinin muzdlu əməkdən və kənd təsərrüfatı texnikasından istifadə edərək torpağı becərməsi vacib şərt idi. Artıq torpaqlar satın alınır və uzun müddətə ilə dəyəri ödənilməklə onu becərən icarədar kəndlilərə satılırdı. İllik ödəniş haqqı icarədarın illik icarə haqqına bərabər olurdu. Kəndli kiçik natural mükəlləfiyyətlərdən azad edilirdi.
Torpaq almağın məcburi şərtlərindən biri də kənd təsərrüfatı kooperativinə üzv olmaq idi. Bu kooperativlər kəndliləri su, toxum, əmək aləti və lazımi kreditlərlə təmin edir, istehsal olunan məhsulun satışına yardımçı olurdu. 1974-cü ilin sonuna qədər 8,5 min kooperativ yarandı. Burada 30 min kəndi əhatə edən 2 mln üzv birləşirdi. Bu da bütün İran kəndlərinin təqribən yarısı idi. Qeyd edək ki, həmin dövrdə bütün İranda 6 min kənd var idi. Kooperativlərlə yanaşı həm də kənd təsərrüfatı istehsalı üzrə 53 iri səhmdar cəmiyyəti yaradılmışdı ki, burada həm torpaq sahibləri, həm də əkinçi-kəndlilər birləşirdi. Rəsmi məlumatlara görə 1971-ci ilin sonlarında təqribən 2,5 mln kəndli təsərrüfatı torpaq sahələrinin mülkiyyətçisi oldu. Ümumiyyətlə aqrar islahat öz qarşısında qoyulan məqsədlərə kifayət səviyyədə cavab verdi və İran kəndində kapitalist təsərrüfat tərzinin yaranmasına gətirib çıxara bildi.
Bununla yanaşı həmin dövrdə kənd üçün xarakter olan belə bir halı da göstərmək lazımdır. O da bundan ibarətdir ki, islahat illərində bir sıra kəndli ailələri yeni fəaliyyət şərtlərinə alışa bilmədilər və müflisləşdilər. Bəziləri borclarını ödəyə bilməyib torpaqlarını satdılar, bəziləri öz torpaqlar sahələrini ümumiyyətlə tərk etdilər və şəhərlərə axışdılar. Burada isə onlar ixtisassız fəhlələr ordusunun sayını

artırır, daha çox isə işsizlərə çevrilirdilər.

İslahatçılar aqrar sahə ilə yanaşı iqtisadiyyatın başqa sahələrində də tərəqqiyə nail olmağa çalışırdılar. Onların planlarının həyata keçirilməsində dünya bazarında 70-ci illərin ortalarına kimi neft və neft məhsullarına ehtiyacın artması da bir təkan olmuşdur. Neftin satış qiyməti çox sürətlə qalxmış, neft şirkətlərinin gəlirləri artmışdı. Belə əlverişli şərait, təbiidir ki, ölkədə neft hasilatının yüksəlməsinə səbəb olmaya bilməzdi. Faktlara fikir versək, həm də bu yüksəlişin necə böyük olduğu görsənər. İran əgər 1962-ci ildə 65 min t neft hasil edirdisə, bu rəqəm 1973-cü ildə 294 mln t oldu. Neft hasilatı, demək olar ki, bütünlüklə xarici şirkətlərin əlində idi. İİNK ilə bağlı mübahisələr həll olunduqdan sonra 1957-1958-ci illərdə İtaliya, ABŞ və Kanada neft şirkətləri İranda yeni neft konsessiyalarına sahib olmuş və beynəlxalq konsorsium ilə yanaşı fəaliyyət göstərirdilər. Onlar İranı neft hasilatı üzrə dünyada dördüncü yerə (ABŞ, Venesuela və Səudiyyə Ərəbistanından sonra) qaldıra bilmişdilər. Bunun sayəsində İran daimi və sabit şəkildə iri məbləğdə valyuta gəlirinə malik idi. 1973-cü ildə ərəb-israil müharibəsi ilə bağlı baş verən neft böhranı isə neftin qiymətini çox sürətlə artırdı. Təbiidir ki, İranın da gəliri gözlənildiyindən xeyli yüksək oldu və 1974-cü ildə 18,6 mld dollara qalxdı. Ümumiyyətlə həmin dövrdə İranın xarici valyuta gəlirinin 80%-i neftin payına düşürdü.

Təbiidir ki, bu da İranda sənayenin başqa sahələrinin yaradılması və inkişaf etdirilməsinə real imkanlar yaradırdı. Xaricdən lazım olan avadanlıqlar alındı və qaz sənayesi, avtomobilyığma və avtomobil istehsalı, traktor istehsalı, metallurgiya sənayesi və digər müasir sənaye sahələri yaradıldı. Ənənəvi sənaye sahələri olan tekstil, sement və şəkər istehsalı texniki baxımdan yenidən quruldu və onların istehsal gücü xeyli artırıldı. İran xaricə neft-kimya məhsulları, avtobus, sement, müxtəlif növ parçalar, ayaqqabı, soyuducu və s. satırdı. Dünya bazarında neftin qiymətinin artması nəticəsində 1973-cü ildən 1975-ci ilə qədər olan müddətdə ölkənin sənayeləşdirilməsinə qoyulan vəsait iki dəfə artmışdır. Qısa zaman kəsiyində İran inkişaf etmiş ölkələr sırasında öz yerini tutacaq bir duruma gəlmişdi. Şah İranı bölgənin ən böyük iqtisadi və hərbi gücünə çevirmək üçün lazım olan bütün tədbirləri görürdü.

Qeyd etmək lazımdır ki, İran sənayenin inkişafına yalnız öz daxili dövlət vəsaitləri hesabına yox, həm də xarici kapitalın və özəl kapitalın bu işə fəal cəlb edilməsi hesabına nail olmuşdu. Bunların nəticəsində 60-70-ci illərin ortalarına kimi olan müddətdə Ümum milli məhsul istehsalında sənayenin xüsusi çəkisi artmış və 19%-dən 23,4%-ə yüksəlmişdi. Kənd təsərrüfatı üzrə isə bu göstərici əksinə olmuş və 29,3%-dən 16%-ə enmişdi.

Həmin illərdə İran iqtisadiyyatının inkişafının bir göstəricisi də budur ki, 50-ci illərin ortalarından 70-ci illərin ortalarına kimi olan iyirmi il müddətində adambaşına düşən Ümummilli məhsul istehsalı 10 dəfə artmış və dəyəri 1274 dollara çatmışdı.

Təbiidir ki, yeni sənaye sahələrinin yaranması, kənd təsərrüfatında elm və texnikanın nailiyyətlərindən istifadəyə önəm verilməsi və s. lazımi mütəxəssislər tələb edir, dövrün şərtlərinə uyğun insan düşüncəsi və həyatını bir zərurətə çevirirdi. Nəzərə almaq lazım idi ki, həmin dövrdə ölkədə kütləvi savadsızlıq vardı (1956-cı ildə savadsızların sayı ölkə əhalisinin 85%-dən çox idi). Problemin həlli üçün 60-70-ci illərdə məktəb sisteminin genişləndirilməsi və yenidən qurulması, kütləvi savadsızlığın ləğvi, texniki-peşə məktəbləri və ali məktəb şəbəkəsinin ölkəboyunca yayılması, texniki kadrların yeni ixtisaslara yiyələnməsi və s. istiqamətində xeyli işlər görüldü. "Maarif korpusları"nın köməyi ilə on il müddətində bir milyon uşaq və yarım milyona qədər yaşlı insan oxumağı-yazmağı öyrəndi, şagirdlərin sayı 3 dəfə artdı, ölkə üzrə savadlıların sayı 37%-ə çatdı. 1974-cü ildə qəbul olunan qərara görə ölkədə 8 illik pulsuz təhsil həyata keçirilməyə başladı. Təkcə orta təhsil sahəsində deyil, ali təhsil sahəsində də müəyyən uğurlar qazanıldı. 1974-cü ildə ali məktəblərin sayı 148 idi və burada 123 min tələbə təhsil alırdı. Halbuki 1961-ci ildə İranda cəmisi 21,6 min ali məktəb tələbəsi var idi.

İslahatlar dövründə əhəmiyyət verilən sahələrdən birisi də səhiyyə idi. Tibb müəssisələri şəbəkəsinin genişləndirilməsi, xüsusilə də bu işə kənd yerlərində daha ciddi önəm verilməsi sayəsində bir sıra yoluxucu xəstəliklərə qarşı mübarizə aparmaq imkanları asanlaşdı. Səhiyyə xidmətinin yaxşılaşdırılmasının nəticəsi idi ki, orta ömür həddi xeyli yüksəldi və 55 yaşa çatdı.
1953-cü il dövlət çevrilişindən sonrakı dövrdə, eləcə də islahat illərində İranın xarici siyasət kursunda ciddi dəyişikliklər baş verdi. İranın Qərb ölkələri, ən başlıcası isə ABŞ-a yaxınlaşması, onunla ikitərəfli hərbi əməkdaşlıq qurması, iqtisadi əməkdaşlığı isə yalnız kapitalist dövlətləri ilə etməsi bu siyasətin ana xəttinə çevrildi. İranın ABŞ və Böyük Britaniya ilə birlikdə SENTO blokunda iştirakı bu dövlətlərin arasındakı münasibətlərin xarakterini müəyyənləşdirən başlıca faktor oldu. Lakin zaman keçdikcə İranın sosialist ölkələri, o cümlədən Sovet İttifaqı ilə də əlaqələri inkişafa meyl etməyə başladı. 1962-ci ildən yaxşılaşmağa başlayan sovet-iran ilişgiləri 1963-cü ilin 27 iyulunda Tehranda texniki və iqtisadi əməkdaşlıq haqqında ikitərəfli sazişin imzalanması ilə nəticələndi. Sovet İttifaqının yardımı ilə İranda hidroenerji və meliorasiya qurğuları inşa edildi. 1973-cü ilin 15 martında bağlanan yeni sovet-iran sazişinə görə daha böyük sənaye müəssisələrinin, məsələn İsfahan metallurgiya zavodu kimi, inşası nəzərdə tutulurdu. İki ölkə arasında ticarət əlaqələri də inkişaf etməkdə idi. Digər sosialist ölkələri, xüsusilə Çexoslovakiya və Rumıniya ilə iqtisadi və texniki əməkdaşlıq haqqında sazişlər bağlanmışdı.
Qonşu ölkələrdən Pakistan, Əfqanıstan və Türkiyə ilə normal münasibətlər quran İran eyni zamanda Pakistan və Türkiyə ilə 1964-cü ildə yaradılmış regional əməkdaşlıq haqqında sazişə görə də bir-birilə sıx bağlı idi. Digər qonşu dövlətlərdən İraqla Şətt əl-ərəb çayı boyunca keçən sərhədlə bağlı mübahisələri olan İran həm də qonşusunu orada yaşayan iranlılara yaxşı münasibət göstərməməkdə ittiham edirdi. Bu baxımdan İran-İraq münasibətləri kifayət qədər gərgin idi. 1971-ci ilin dekabrında Fars körfəzinin girəcəyindəki Əbu Musa, Tomb-e Bozorq və Tomb-e Küçek adalarının İran tərəfindən işğalı gərginliyi son həddə çatdırdı. İki dövlət arasında diplomatik münasibətlər kəsildi və bu münasibətlər bir də 1973-cü ilin oktyabrında bərpa olundu. Yeri gəlmişkən qeyd etmək lazımdır ki İran həmin illərdə İsraillə münaqişədə ərəb ölələrini dəstəklədiyini bildirirdi. O, bir sıra ərəb ölkələri ilə normal münasibətlərini bərpa edə bildi. Bununla yanaşı İran körfəzdən 1971-ci ildə ingilis hərbi qüvvələrinin çəkilməsindən sonra burada güc və söz sahibi olmaq və ingilislərin rolunu öz üzərinə götürmək üçün müxtəlif səy və cəhdlər göstərməkdən də çəkinmirdi. Təbiidir ki, bu məsələdə islahatların uğurlu iqtisadi və sosial nəticələri də öz təsirini göstərməmiş deyildi.
Ümumiyyətlə qeyd etmək lazımdır ki, 60-70-ci illərin birinci yarısında İran rəsmi təbliğatının "ağ inqilab" və ya"şahın və xalqın inqilabı" adlandırdığı islahatlar cəmiyyətdə heç də bir mənalı dəyərləndirilmirdi. İslahatlar təkcə iqtisadi və sosial sahələrdə deyil, elə siyasi həyatda da dərin izlər buraxdı. Bu baxımdan millətçi övqatlı müxalifətin xeyli zəifləməsi xüsusi olaraq qeyd edilməlidir. Bunun göstəricisi idi ki, Milli Cəbhənin fəallığı ümumiyyətlə nəzərə çarpmırdı. Onun mötədil qüvvələri isə hökumətlə sazişə gəlməyə tam hazır idilər. Yaranmış siyasi durumdan çox razı qalan şah tamam inanırdı ki, daxili ictimai-siyasi həyata nəzarət bütünlüklə ona məxsusdur. Məhz bu zahiri görünüş və heç də tam əsasa söykənməyən inam şahda yaranmaqda olan avtoritar rejimi daha da möhkəmləndirmək istəyi yaratdı. Bu baxımdan şahın atmış olduğu ilk addım 1975-ci ilin martında bütün siyasi partiyaların buraxılmasını elan etməsi oldu. Eyni zamanda şah bildirdi ki, ölkədə birpartiyalı sistem yaranır. Bu partiya da şahın arzusu ilə təşəkkül tapan və "İranın dirçəlişi" adlanan təşkilatdır. "İranın dirçəlişi" partiyasının əsas prinsipi isə "konstitusiya, monarxiya və 1341-ci il 6 bəhmən inqilabına* sədaqət"dən ibarət idi. Onun məqsədi İran cəmiyyətinin Pəhləvilər sülaləsi ətrafında birləşdirilməsinə çalışmaq idi. İranda şahlıq rejiminin 2500 illiyinin təntənəli bayram edilməsi, bu bayramın kulminasiyası kimi Məhəmməd Rzanın "İranın şahənşahı" elan olunması da həmin məqsədlə edilir, Pəhləvilər hakimiyyətinin legitimliyini bir daha nəzərə çapdırırdı.

Lakin şah və onun ətrafı qüvvətlənməkdə olan rəqiblərinin, ilk növbədə klerikal qüvvələrin və solların təsir imkanlarını lazımınca dəyərləndirə bilmədilər. Bu da maraqlıdır ki, rəqiblərin hər ikisi ağır gizli fəaliyyət şəraitinə, güclü repressiyalara baxmayaraq özlərini qoruyub saxlaya bilmiş, fəaliyyət mərkəzlərini xaricdəki mühacirət təşkilatlarına keçirməyi bacarmışdılar. Ölkədə isə şah rejimindən narazı qüvvələrin ovqatının yeganə leqal ifadəçiləri şiə ruhaniləri idilər.

"Ağ inqilab"ın nəticələrindən biri də İranda din xadimlərinin hüquq və mövqelərinin müəyyən qədər sıxışdırılması oldu. Bu da təbiidir ki, ölkədə dövlət və məscid arasında mövcud olan ənənəvi qarşılıqlı əlaqələri pozmaya bilməzdi və İranda həmişə möhkəm mövqeləri və cəmiyyətə dərin təsir etmək imkanları olan din xadimlərinin narazılığını doğurmaya bilməzdi. İslahatların ilk illərindən etibarən bu narazılıq açıq şəkildə dilə gətirilir, nüfuzlu din xadimləri, -onların arasında görkəmli ilahiyyatçı Borucerdi xüsusilə fərqlənirdi,-torpaq islahatı haqqında qanun layihəsinə qarşı çıxır, məclis üzvlərini ona qarşı çıxmağa və əleyhinə səs verməyə çağırırdılar. 1961-ci ildə Borucerdinin ölümündən sonra islahatların keçirilməsinə qarşı din xadimlərinin mübarizəsinə ayətullah Humeyni (1900-1989) başçılıq edirdi. O, çıxışlarında və yazılarında bildirirdi ki, hökumətin hazırladığı islahatlar, o cümlədən torpaq islahatı Quranın müddəalarına və islam əxlaqının normalarına ziddir. Ayətullah Humeyninin kəskin tənqid etdiyi məsələlərdən biri də qadınların kişilərlə eyni hüquqa malik olması haqqında verilən qanun idi. Ayətullah Humeyninin bu fikirlərini di-gər tanınmış din xadimlərindən ayətullah Bəhbəhani, ayətullah Şəriət-Mədari, ayətullah Taleqani və b. müdafiə edir və xalq arasında yayırdılar. Bu qüvvələr az sonra sözdən işə keçdilər. 1962-ci ilin yanvarında dini mərkəz Qumda, həmin ilin dekabrında Tehranda şiə ruhanilərinin təşkil etdiyi kütləvi çıxışlar baş verdi. 1963-cü ilin iyununda isə bu çıxışların miqyası daha da genişləndi və digər əyalət mərkəzlərində hökumətə qarşı çıxışlar oldu. Hökumət də öz növbəsində bu çıxışlara qarşı polisin və ordunun gücündən istifadə etdi, qanlı toqquşmalar baş verdi. Hökumət nəinki küçələrə çıxıb etiraz bildirənlərə qarşı sərt rəftar etdi, həm də bu işin təşkilatçıları olan din xadimlərini, o cümlədən Humeynini həbsə aldı.

Humeyni və silahdaşlarının həbsi uzun sürmədi. İki aydan sonra azadlığa çıxan ayətullah Humeyni daha qətiyyətlə çıxışlar edir, ruhanilərin müxalifəti daha da güclənirdi. Humeyni öz xütbələrində seçkilərdə qadınlara kişilərlə bərabər hüquq verilməsi, hərbi işlərdə və polis xidmətində qadınlardan istifadə edilməsi, oğlan və qızların birgə təhsil alması, ruhanilərin icazəsi olmadan vəqf torpaqlarının müsadirə edilməsi və onların dövlət məmurlarına satılması, ölkədə ABŞ-ın nüfuzunun həddindən çox olması, "əxlaqsız" xarici filmlərin göstərilməsi və s. kimi hallara qarşı kəskin etirazını bildirir və hökuməti ciddi tənqid edirdi. Onun bu çıxış və tənqidləri xalq arasında, daha doğrusu, hökumətdən və şahdan narazı olan qüvvələr arasında böyük əks-səda doğururdu. Bunun qarşısını almaq üçün 1964-cü ilin noyabrında Humeyni ölkədən çıxarıldı. O, əvvəlcə Türkiyəyə, oradan da İraqa keçməli oldu. Sonra isə birdəfəlik Fransada qərar tutdu. Humeyni mühacirətdə olarkən fəaliyyətini dayandırmadı, əksinə daha da canlandırdı. O, İrandakı 200 mindən çox mollanın vasitəsilə "satqın" şaha və şahlıq rejiminə qarşı mübarizəsini davamlı olaraq sürdürür, ölkədə tərəfdarlarının sayını artırırdı. Qeyd etmək lazımdır ki, bunun üçün İranın özündə də münbit şərait var idi. Belə ki, islahatlar, xüsusi ilə də aqrar islahat cəmiyyətin imtiyazlı və zəngin qüvvələrinə güclü zərbə idi və onlar zorun gücünə susurdular. İslahatlar nəticəsində ənənəvi iqtisadi və sosial strukturların dağılması və yenisinin yaranması şəhərin orta təbəqələrini müəyyən çətinliklər qarşısında qoyurdu: ənənəvi fəaliyyət və yaşayış tərzi pozulur, bu insanlar bəzən yeni şərtlərə alışa bilmir, bəzən də ölkənin kapitalistcəsinə çox sürətlə modernləşməsi ilə ayaqlaşmağı bacarmırdılar. Həm də bu təbəqələr öz sosial və siyasi düşüncələrinə görə milli istiqlaliyyət ideallarına daha çox meyllidirlər, əksər halda idealların daşıyıcılarıdır. İqtisadiyyatın liberallaşdırılması kursu isə istər-istəməz ölkədə xarici iş adamlarının çoxalmasına gətirirdi, iqtisadi həyatda xaricilərin rolunu artırırdı. 1978-ci ildə təkcə ABŞ-ın hərbi və digər sahələrdə çalışan mütəxəssislərinin sayı 50 mindən çox idi. Ümumiyyətlə isə ölkədə çalışan

xaricilərin sayı yüz min nəfəri keçmişdi. Məhz bunlar da həmin təbəqələrdə narazılıq yaradırdı. Narazılığın başqa bir mənbəyi də hərbi xərclərin olduqca artırılması idi. İrəlidə deyildiyi kimi bu onunla bağlı idi ki, şah Məhəmməd Rza həmin dövrdə Yaxın və Orta Şərq regionunda məsələlərin həllində hakim rolu oynamaq, Fars körfəzində üstün mövqe tutmaq iddialarını gerçəkləşdirmək arzusu ilə yaşayırdı. İran bu məqsədlə ABŞ-a milyardlarla dollarlıq silah sifariş vermişdi.
Bütün bunlar ruhanilərin şaha qarşı müxalifətçi çıxış və tənqidlərinin böyük əks-səda yaratmasının, onların şaha qarşı duracaq bir qüvvəyə çevrilməsinin səbəblərindən idi. Həmin dövrdə artıq siyasi qüvvələr də bu gücü görüb qiymətləndirməyə başlayırdılar. Təsadüfi deyildir ki, 60-cı illərdə bir sıra tanınmış liderlər, o cümlədən M.Bazarqani dini-fəlsəfi məsələlərin araşdırılması ilə məşğul olurdular. 70-ci illərdə isə artıq tələbə gənclər bu prosesin içinə girirlər. Hətta "islamçı marksistlər" qrupları yaradıldı. "İslamçı marksistlər" bir qədər də irəli gedərək xalqı mövcud quruluşa qarşı silahlı mübarizəyə çağırırdılar.

* * *

.

## İran (1978-1989)

İsalm inqilabı (1978-1979) və onun nəticələri

İranda yaranmaqda olan sosial-siyasi böhran şahın bütün səylərinə baxmayaraq daha da genişləndi və artıq 70-ci illərin sonlarında özünün son həddinə çatdı. Getdikcə daha çox bəlli olurdu ki, yuxarıdan edilən «ağ inqilab» və ya şahın İranı dövlətin iştirakı ilə Avropa kapitalizmi yoluna gətirmək və ölkənin sürətli inkişafına nail olmaq kursundan narazı qüvvələrin sayı nəinki artır, onlar nəinki öz narazılıqlarını dilə gətirirlər, həm də işdə bunu göstərirdilər. Yuxarıda ölkənin müxtəlif yerlərində baş verən çıxışlar haqqında danışdığımızdan yenidən həmin hadisələri təkrarlamağa ehtiyac yoxdur. Ancaq onu qeyd etmək istərdik ki, həmin arada baş verən hadisələr İranda belə vəziyyət yaratmışdı: bir tərəfdə xalqın narazı olduğu şah var, o heç də hər zaman konstitusiya normaları ilə hesablaşmır, hüquq və azadlıqları istədiyi kimi məhdudlaşdırır, ordu və polisin, xüsusilə də SAVAK-ın zoru ilə müxalifətin ağzını qapadır, ona qarşı hər cür təqib və repressiyadan çəkinmir; o biri tərəfdə şahın səhvlərindən bacarıqla istifadə edib ölkədə olduqca güclü bir qüvvəyə çevrilmiş ruhanilər dəstəsi var və bu qüvvə ənənəvi həyat rejimi pozulmuş çox böyük narazılar kütləsi tərəfindən dəstəklənir.
Digər bir cəhətə də diqqəti cəlb etmək istərdik: ölkədə aparılan dəyişikliklərin zəruriliyini xalqa anlada bilən bir ideya yoxluğu da bu proseslərdə mühüm rol oynamışdır. Hətta İran ziyalılarının ən savadlı dairələri və onların ardınca gedən tələbə -gənclərin böyük hissəsi də ölkədə islam qayda-qanunları və ənənələrinin saxlanılması tərəfdarı kimi çıxış edirdilər.
Odur ki, şahın modernləşdirmə, bir qədər açıqlasaq, avropalaşdırma kursuna qarşı qoyulan etiraz doktrinasının da yeganə mənbəyi islam, konkret halda bütün xarakter xüsusiyyətləri ilə birlikdə ənənəvi şiə islamı oldu. Xarakter xüsusiyyətlər dedikdə isə ideya uğrunda mübarizədə dönməzlik, Mehdinin-Sahib əz-zamanın gəlişinə inam, öz rəhbərlərinin imamların göstərişinə sidq-ürəkdən əməl etmək və s. nəzərdə tutulur. İranda şiə liderlərinin ən nüfuzlu nümayəndələri ayətullah fəxri adını daşıyır. Həmin dövrdə ölkədə, irəlidə deyildiyi kimi nüfuzlu ayətullahlar hərəkata qoşulmuşdular və onların da başında ayətullah Humeyni dururdu. Məhz o, şaha qarşı açıq çıxışların əsasını qoydu, məhz o da şah hakimiyyətini devirməyə gətirən islam inqilabını qələbə ilə başa çatdırdı.
İnqilabi hadisələr isə 1978-ci ilin yanvarında başladı. Bunun da səbəbi o idi ki, həmin vaxt Qumda hökumətə qarşı etiraz nümayişləri gedirdi və onu yatırmaq üçün silaha əl atıldı. Nümayişçilərdən ölənlər və yaralananlar oldu. Ölənlərin 40-cı günündə baş verən qanlı hadisəyə etiraz olaraq ölkənin

müxtəlif şəhərlərində, xüsusi ilə Təbrizdə yeni çıxışlar baş verdikdə hökumət qüvvələri iştirakçılara yenidən atəş açdılar. Ümumiyyətlə həmin dövrdə şah yalnız və yalnız gücə, zora istinad edirdi və hələ də ruhanilərin qüvvəsinə etinasızlıqla yanaşırdı. Bu dəfə isə baş verən hadisə ölkədə çox böyük əks-səda verdi: bazarlar bağlandı, işçilər tətilə çıxdılar, tələbələr dərsə gəlmədilər. Artıq etiraz aksiyalarının formaları da çoxalırdı. Dinc nümayiş və mitinqlər, xarici filmlərin göstərildiyi kino-teatrlara hücumlar, polis məntəqələrinin dağıdılması, oturaq tətillər-bəst, küçə döyüşləri və s. İran həyatının gerçəkliyi idi. Ordu, polis, jandarma və SAVAK qüvvələri ilə toqquşmalarda on minlərlə insan həlak oldu. Lakin xalq geri çəkilmədi, mübarizə daha güclü və daha miqyaslı xarakter aldı.
Bu qarşıdurmalarda iki amil həlledici rol oynamışdır: məscid və neft quyuları. Məscid islamçı qüvvələri birləşdirən bir mərkəz, bir qərargah idisə, neft quyuları solçu qüvvələrin təşkil etdikləri tətillərin güc mənbəyi idi. Belə ki, şahın bütün siyasi və iqtisadi dayağı məhz neftə, ondan gələn pullara əsaslanırdı. Tətillər vasitəsilə neft quyularının işinin dayandırılması şah hökumətinin öz dayağından məhrum edilməsi idi. Gündə 6 mln barrel neft hasilatı 1978-ci ilin sonlarında 700 min barellə enmişdi.
Qeyd etmək lazımdır ki, 1978-ci ilin avqustunda İsfahanda baş verən hadisələr İrandakı qarşıdurmaları bir dönüş nöqtəsinə gətirdi. Ziddiyyətlər daha sürətlə kəskinləşirdi. Eyni zamanda şahın geri çəkilməsi də hiss olunurdu. Belə ki, o, bir tərəfdən İsfahanda sərt idarəçilik rejimi tətbiq etdisə də, o biri tərəfdən vəziyyəti bir qədər yumşaltmaq məqsədi ilə baş nazir vəzifəsinə mötədil bir şəxs kimi tanınan Cəfər Şərif İmamini gətirdi. C.Ş.İmaminin 1979-cu ilin avqustunda ümumi seçkilər keçiriləcəyini vəd etməsi müxalifət tərəfindən kəskin etirazla qarşılandı. Ölkənin hər yerini narazılıq dalğası bürüdü. Şah daha on böyük şəhərdə sərt idarəçilik rejimi elan etdi. Yenidən etirazlar alovlandı. İstər sosial sahələrdə, istərsə neft mədənlərində sonu bilinməyən tətillər başlandı. C.Ş.İmami hökuməti istefa verdi. Noyabrın 6-da general Qulam Rza Əzhəri yeni hökumət təşkil etdi. Həm baş nazir Q.R.Əzhəri, həm də şahın özü bir sıra güzəştlərə getdilər. Siyasi dustaqların buraxılması və siyasi müxalifətə fəaliyyət azadlığı verilməsi vədi elan edildi. İslam təqvimi tətbiq olundu. Şah hətta radioda çıxış edərək bəzi səhvlər buraxıldığını etiraf etdi.
Nəhayət, 1978-ci ilin sonlarında şah anladı ki, qarşıdurma onun xeyrinə deyildir və xalqın coşmuş qəzəbini bir qədər sakitləşdirmək üçün yeni cəhdlər göstərməyə başladı. Hərbçilərdən ibarət hökumət 1979-cu ilin 6 yanvarında mülki hökumətlə əvəzləndi, onun başçılığına isə Milli Cəbhənin nüfuzlu liderlərindən Ş.Bəxtiyar gətirildi. Bununla şah həm də istəyirdi ki, müxalifəti parçalasın, ən azı laik siyasətçiləri klerikallardan ayırsın və öz tərəfinə çəksin. Ancaq onun bu niyyəti baş tutmadı. Milli Cəbhə Ş.Bəxtiyarı öz sıralarından çıxardı. Ş.Bəxtiyarın ölkənin siyasi sistemini demokratikləşdirmək, mətbuat azadlığını təmin etmək, siyasi məhbusları azad etmək, SAVAK-ı buraxmaq, müstəqil xarici siyasət yürütmək kimi vədləri də kömək etmədi və təsirsiz qaldı. Əsasən ruhanilərin başçılıq etdiyi kütlələr isə yalnız Humeyninin göstərişlərini əsas tutur və ona əməl edirdilər. O isə Ş.Bəxtiyar hökumətinin təşkil olunmasını pisləyir, bu hökumətin yaradılmasını xalqa qarşı bir sui-qəsd adlandırır və xalqı itaətsizliyə çağırırdı. Sonrakı hadisələr göstərdi ki, Humeynin bu çağırışlarının arxasında, ölkədə demokratik qayda-qanunların yaradılmasından daha çox şahlıq rejimini yıxmaq və İranda islam dövləti yaratmaq istəkləri dururdu.
Belə olan təqdirdə vəziyyət son dərəcə çıxılmaz vəziyyət aldı və 1979-cu ilin 16 yanvarında şah Məhəmməd Rza Ş.Bəxtiyarın tövsiyəsi ilə İranı, çox ehtimal ki, müvəqqəti olaraq düşüncəsi ilə tərk etdi. Bu xəbər xalqda çox böyük ruh və həvəs yaratdı. Xalq küçələrə töküldü, şahın portretləri cırılır, onun şərəfinə qoyulmuş abidələr darmadağın edilirdi. Fevralın 1-də Humeyninin mühacirətdən qayıtmasını xalq böyük bir coşqu ilə qarşıladı. Humeyni isə elə ilk çıxışında bildirdi ki, mübarizəni şahlıq rejiminin yıxılmasına kimi davam etdirmək lazımdır və ümumxalq seçkisi yolu ilə «həqiqi Müəssisələr Məclisi» yaradılmasının tərəfdarıdır.

Qeyd etmək lazımdır ki, şahın İranı tərk etməsindən və Humeyninin mühacirətdən qayıtmasından sonra ölkədə bir müddət ikihakimiyyətlilik mövcud oldu. Bir tərəfdə Ş.Bəxtiyarın başçılıq etdiyi hökumət vardı və onun da arxasında ordu və digər güc qüvvələri dayanırdı. Buna görə də o, istefa verməkdən imtina edir və bildirirdi ki, şah diktaturasının ruhanilərin diktaturası ilə əvəz olunmasına yol verməyəcəkdir. O, biri tərəfdə isə Humeyninin qeyri-rəsmi hakimiyyəti vardı və onun da arxasında bütün ölkə boyu yaradılmış «islam inqilab komitələri» dayanırdı. Ayətullah Humeyni fevralın 4-də Milli Cəbhənin başqa bir tanınmış lideri M.Bazarqanı Müvəqqəti İnqilabi hökumətin başçısı təyin etdiyini də bildirdi. O çalışırdı ki, Ş.Bəxtiyar hökumətini ümumxalq təzyiqi vasitəsilə dincliklə istefaya göndərsin və həmin qayda ilə də şah ordusunun birliyinin pozulmasına nail olsun. Həm də o dövrdə solçu təşkilat və qüvvələr yetərincə fəallaşmışdılar, bu isə Humeynini çox narahat edirdi.
Belə ki, inqilabi prosesin gedişində Tudə partiyasının sıralarının artması üçün münbit şərait yaranmışdı. Bir sıra solçu təşkilatlar, xüsusilə də «İran xalqının müqəddəs işi uğrunda mücahidlər» və «İran xalqının fədailəri» adlı marksist-leninçi yönümlü təşkilatlar xeyli dərəcədə fəallaşmışdılar. Onların səyi ilə fəhlələrin tətil komitələri, yeni həmkarlar təşkilatları yaradılır, sonuncular da öz növbəsində müəssisələrdə özünü idarə sisteminin və fəhlə nəzarətinin yaradılmasını tələb edirdilər. Bir sıra din xadimi, o cümlədən tanınmış ilahiyyatçı Taleqani tərəfindən dəstəklənən solçular xalqı silahlı mübarizəyə səsləyirdilər. Təbiidir ki, ruhanilərin də ən çox çəkindikləri elə bu idi. Onlar qorxurdular ki, xalq silaha əl atarsa hərəkat ruhanilərin nəzarətindən çıxa bilər.
1979-cu ilin 9-10 fevralında Tehranın yaxınlığındakı aviasiya bazasında baş verən hadisələr Humeyni və onun başçılıq etdiyi ruhanilərin qorxduğu və çəkindiyi prosesin real olduğunu təsdiqlədi. Belə ki, aviabazada olan texniklərə qarşı şah qvardiyası dəstəsinin hücum təşkil etməsi paytaxt əhalisinin silahlı mübarizəyə qalxması üçün bir siqnal oldu. Bazada işləyən və hücuma məruz qalanların köməyinə ilk olaraq fədailər, mücahidlər və Tudə partiyasının üzvləri gəldilər. Onlar şah qvardiyası dəstəsinin hücumunun qarşısını aldılar və geri oturtdular. Bundan sonra isə Tehranda hakimiyyətin əsas dayaq məntəqələrinə-polis şöbələrinə, jandarma və polis idarəsinə, SAVAK-ın qərargahına hücuma keçdilər. Üsyan başlandı və az sonra radio verilişləri, televiziya mərkəzi, məclis binası tutuldu. Tehrandan sonra bir sıra əyalət mərkəzlərində də silahlı üsyanlar oldu və ümumiyyətlə üsyan ölkənin başlıca şəhər və əyalətlərini bürümüşdü. Vəziyyət son dərəcə ağırlaşmışdı. Ölkə böyük qırğınlarla üz-üzə qalmışdı. Bunun nəticələrinin məsuliyyətini dərk etmək zorunda qalan Ali Hərbi Şura öz bitərəfliyini bildirirdi və ordu birləşmələrinə kazarmalara çəkilmək əmri verildi. Baş nazir Ş.Bəxtiyar ölkəni tərk etdi. Şah tərəfdarlarının sonuncu müqavimət ocaqları artıq fevralın 12-də söndürüldü. Beləliklə də şah və şahlıq rejiminə qarşı aparılan mübarizə uğurla nəticələndi və bu hadisə İran tarixinə Fevral inqilabı adı ilə yazıldı.
Fevral silahlı üsyanı qalib gəldi. Lakin bu qələbə 1978-ci ilin yanvarında şaha və şahlığa qarşı başlanmış hərəkatın ilk günlərindən bir yerdə olan siyasi qüvvələrin birliyinin sonu oldu. İranın gələcəyinin necəliyi uğrunda mübarizə kəskin qarşıdurma forması aldı. Ən sonda bu qarşıdurmalar şiə ruhanilərinin qələbəsi ilə başa çatdı. Bu ondan irəli gəldi ki, birincisi, ruhanilər xalq kütlələrinə təsir etmək baxımından daha böyük imkanlara malik idilər və ikincisi, onların xalqı öz arxasınca aparmaqda hamıdan güclü və nüfuzlu olan ayətullah Humeyni kimi lideri var idi. İran xalqının çox böyük əksəriyyəti məhz Humeyninin göstərişlərinə əməl edirdi. Ruhanilərin öz rəqibləri üzərindəki bu qələbəsi İranda islam dövləti yaratmaq ideyasının reallaşmasına yol açdı. Onlar hakimiyyətə yiyələnə bildilər, inqilabın gedişi zamanı yaranmış təşkilatları özlərinin dayaqlarına çevirməyi bacardılar. Yerlərdə yaranmış islam inqilab komitələrinin məqsəd və məramları üzə çıxdı, inqilab məhkəmələri islam inqilab tribunallarına çevrildilər. Bütün bunlardan əlavə ruhanilər özlərinin silahlı dayağı və arxası kimi «islam inqilabının keşikçiləri» korpusunu yaratdılar. Polis və jandarma

orqanları və eləcə də ordu bu korpusun nəzarəti altına keçdi. Ayrı-ayrı müəssisə və təşkilatlarda yaranmış özünüidarə orqanları mollaların rəhbərlik etdiyi «islam komitələri» oldu. Məscidlərin nəzdində yaranmış komitələrlə birlikdə bu «islam komitələri» yerlərdə yeni rejimin aşağı bazasını təşkil etdilər. «İnqilab keşikçiləri» və «islam komitələri» yerlərdə tam hakimiyyət sahibi oldular. Onlar heç bir qanun-qayda gözləmədən nə istəyirdilər, onu edirdilər. Xoşlarına gəlməyən kim vardısa həbsə alır, sonra da köhnə rejimin tərəfdarı kimi edam etdirirdilər. Bu yolla minlərcə adam öldürüldü. Beynəlxalq Əfv Təşkilatının məlumatına görə 1979-cu ilin fevralından 1981-ci ilin ortalarına kimi edam olunanların sayı 3.350 nəfər, 1981-ci ilin iyul-oktyabr aylarında 1800 nəfər olmuşdur. Beləliklə də İran yeni bir qorxu, yeni bir dəhşət içində yaşayırdı.
Bununla yanaşı rejimə bir hüquqi forma verilməsi işi də aparıldı. 1979-cu ilin 30-31 martında referendum keçirildi. Səsvermədə iştirak edənlərin 99%-i monarxiyanın ləğv edilməsi və İran İslam Respublikası yaradılması tərəfdarı olduğuna səs verdi. 1979-cu ilin 1 aprelində İran İslam Respublikasının yaradıldığı elan edildi.
İranın yeni rəhbərliyi milli istiqlaliyyət və ABŞ-ın ölkədə güclənmiş nüfuzuna qarşı mübarizə ideallarına sədaqətlərini göstərə biləcək bir sıra mühüm addımlar atmağa başladılar. M.Bazarqan hökuməti İranın SENTO-dan çıxdığını bildirdi, ABŞ və Qərb ölkələri ilə bağlanmış bir sıra hərbi və mülki xarakterli kontraktların pozulmasına qərar verdi, ABŞ hərbi bazalarını bağladı. Bunlardan əlavə Beynəlxalq Neft Konsorsiumu ilə bağlanmış saziş ləğv olundu, çox saylı xarici, xüsusilə ABŞ bankları və şirkətlərinin fəaliyyətinə son qoyuldu. Bütün bu antiamerika tədbirlərinin «zirvəsi» isə 1979-cu ilin noyabrında ABŞ səfirliyinin tutulması və onun bütün əməkdaşlarının «girov» elan edilməsi oldu. Bu aksiyanın təşkilatçıları və icraçıları «İmam kursunun ardıcılları olan müsəlman tələbələr» idilər və onlar bəyan edirdilər ki, İran bu aksiya ilə «şeytana»imperializmə meydan oxumuşdur.

İran İslam respublikasının daxili və xarici siyasəti

İran İslam Respublikasının (İİR) yaradılması 1979-cu ilin 1 aprelində elan edildisə, onun konstitusiyası həmin ilin dekabrında referendum yolu ilə qəbul olundu. Bu konstitusiyanın layihəsi ölkənin tanınmış din hüquqçuları - fəqihlər tərəfindən hazırlanmışdı. Konstitusiya müəllifləri Humeyni üçün xüsusi bir hakimiyyət məqamı təsis etdilər. Bu məqam «ali rəhbər» («vilayət-e fəqih») funksiyasını yerinə yetirirdi və İran İslam Respublikasının bütün hakimiyyət orqanlarının fövqündə dayanırdı. Beləliklə də Humeyni faktik olaraq ölkənin bütün icra və məhkəmə orqanlarının fəaliyyətini istiqamətləndirmək hüququna malik oldu. Bu hüququn reallaşması özünün ifadəsini onda tapırdı ki, ən yüksək rütbəli hakimlər və hərbi rəhbərlər, Ali Milli Müdafiə Şurasının üzvləri, hətta ümumxalq səsverməsi ilə seçilən prezidentin namizədliyi Humeyni tərəfindən təsdiq olunmalıydı. 12 nəfərdən ibarət Nəzarətçilər Şurasının («Şura-ye Nigahban») üzvləri Humeyni tərəfindən təyin olunurdu. Nəzarət Şurasının vəzifəsi isə məclisin qəbul etdiyi qanunların islam dininin müddəalarına və konstitusiyaya uyğun olub-olmadığını müəyyənləşdirməkdən ibarətdir. Bunlardan əlavə, müharibə elan etmək, sülh bağlamaq, səfərbərlik elan etmək də Humeyninin müstəsna səlahiyyətləri idi. O həm də İran ordusunun Ali baş komandanı oldu.
Beləliklə də qəbul olunmuş konstitusiyaya görə ölkənin ali hakimiyyəti Humeyninin timsalında ruhanilərə məxsus oldu, mülki siyasi hakimiyyət isə prezident, məclis və baş nazir tərəfindən icra olunmalı idi.
1980-ci ilin yanvar ayında prezident seçkiləri keçirildi və doktor Bəni Sədr İranın ilk prezidenti oldu. O, Sarbonna universitetində iqtisad elmləri üzrə təhsil almış və hələ 1960-cı illərdən etibarən Humeyniyə yaxın olan bir şəxs idi.

Martın 14-də və mayın 9-da isə məclisə iki dövrədə seçkilər keçirildi. Seçkilərdə rejimin yeni partiyası olan, din adamlarının və mollaların dəstəklədiyi Cümhuriyyətçi İslam Partiyası çox böyük üstünlük qazandı. Məclisin sədri isə Məhəmməd Əli Rəcai oldu. Az keçmədi ki, Bəni Sədri dəstəkləyən mərkəzçi qüvvələr ilə M.Ə.Rəcainin başçılıq etdiyi radikal sağçı və dinçilər arasında bir mübarizənin əsası qoyuldu. Mübarizə öz kəskinliyini 1980-ci ilin sentyabrında başlayan İran-İraq müharibəsi dövründə xüsusilə göstərmişdi. Prezident Bəni Sədr bir iqtisadçı kimi boş şüarlar söyləmək yerinə iqtisadi tədbirlərin həyata keçirilməsini istəyirdisə, M.Ə.Rəcai baş nazir olduğu halda öz fəaliyyətində bir sıra həyəcanlı şüarlar söyləməkdən o yana gedə bilmirdi. Halbuki, həmin dövrdə neftdən gələn vəsaitlər xeyli azalmış, işsizlik artmış və inflyasiya 50%-ə çıxmışdı.
Prezident və baş nazir arasında gedən mübarizə ilə bağlı bir maraqlı məqam da o idi ki, kommunist tudəçilər dinçiləri, dolayısı ilə Rəcaini, radikal islamçı «Xalq mücahidləri» isə Bəni Sədri dəstəkləyirdilər.
1981-ci ilin martından başlayaraq Bəni Sədr-Rəcai mübarizəsi hər iki şəxsin tərəfdarlarının küçələrə çıxaraq məsələni zor yolu ilə həll etmək cəhdlərinə qədər gətirib çıxardı. Məsələnin ciddiliyinə görə Humeyni ona öz münasibətini bildirməli oldu. O, Bəni Sədrə arxa durdu və martın 16-da bəyan etdi ki, Bəni Sədr silahlı qüvvələrin baş komandanı təyin olunur. Təbiidir ki, bu, prezident üçün çox böyük dəstək idi. Maraqlıdır ki, həmin dövrdə məclis isə Rəcainin tərəfində oldu. Məhz bu da Bəni Sədr-Rəcai mübarizəsinin taleyini həll etdi. Humeyni Bəni Sədrə arxa durmaqdan çəkildi və iyulun 10-da onu baş komandanlıqdan, 21-də isə prezidentlikdən azad etdi.
Qeyd etmək lazımdır ki, təkcə bu hadisə yox, ümumiyyətlə islam respublikasının təşkili ilə bağlı həyata keçirilən bütün tədbirlər heç də yalnız ölkədə teokratik rejim yaradılmasına gətirmədi. Həm də ona gətirdi ki, ölkənin siyasi həyatında daha mühafizəkar şiə din xadimlərinin hökmranlığı bərqərar oldu. Bu mühafizəkar din xadimləri öz hakimiyyətlərini yaratmış olduqları cümhuriyyətçi İslam Partiyası vasitəsilə həyata keçirirdilər. Baş nazir M.Bazarqanın və ilk prezident Bəni Sədrin vəzifələrindən azad edilməsi faktik olaraq Cümhuriyyətçi İslam Partiyası liderlərinin mövqelərinin tam qalib gəlməsinin əlaməti idi. Bu həm də onun əlaməti idi ki, mötədilliberal kurs tərəfdarlarının, eləcə də ticarət-sənaye dairələrinin maraqlarını qoruyan qüvvələrin siyasi hakimiyyətdə yeri yoxdur. Mövqelərini kifayət qədər möhkəmlədən dini siyasi qüvvələr bundan sonra indiyə kimi əməkdaşlıq etmiş olduqları, əgər belə demək mümkündürsə, yolüstü müttəfiqlərindən xilas olmaq qərarını verdilər. Əvvəlcə marksist-leninçi fədailər və mücahidlərə qarşı, sonra isə Tudə partiyasının üzvlərinə qarşı təqiblər başlandı. Onlardan çoxu Sovet İttifaqına casusluqda suçlandırıldı, məhbəslərə atıldı və bəziləri hətta edam edildi. Bu təqiblər və repressiyalar yenidən minlərlə insanın məhvinə səbəb oldu. Onlar «yer üzünə rəzalət yayan»lar və «kafir»lər kimi damğalanırdı.
Qeyd etmək lazımdır ki, şaha və şahlıq rejiminə mübarizə illərində qeyri-fars millət və xalqlar da Humeynini dəstəkləyir və hərəkatda çox yaxından iştirak edirdilər. Təbiidir ki, bu ilk öncə sosial və siyasi məhrumiyyətlərdən irəli gəlirdisə, həm də milli məhrumiyyətlərlə də bağlı idi. Bu baxımdan onlara az vədlər də verilməmişdi. Lakin konstitusiya qəbul edilərkən orada milli hüquqların təmini haqqında elə bir əsaslı maddə olmadı. Bu da Cənubi Azərbaycanda, Şimali Kürdüstanda, Belucistanda, türkmənlərin, etnik azlıqların yaşadıqları əyalətlərdə narazılıqla qarşılandı, vəziyyət kifayət qədər gərginləşdi və hətta qanlı nəticələrə gətirən silahlı toqquşmalar baş verdi. İranda yaşayan qeyri-fars millətlərin və etnik azlıqların əsas istəyi müəyyən bir muxtariyyət hüququna malik olmaq idi. Onların Humeyni rejiminə qarşı çıxışları 1979-cu ilin mart ayında başlasa da həmin qüvvələr hələ şah rejimi dövründə də öz milli muxtariyyətləri uğrunda mübarizə aparırdılar. Məsələn, 1978-ci il yayında şahın nüfuzunun tədricən aşağı düşməyə başladığı dövrdə sünni kürdlər Mehabad bölgəsində özlərinin bağımsız dövlətini yaratdıqlarını elan etmişdilər və Humeyni İranın rəhbəri olduqdan sonra onun fərman və qərarlarını qəbul etmirdilər. Bunun nəticəsi olaraq bölgədəki kürdlər

ilə Humeyninin inqilab keşikçiləri arasında ilk gündən toqquşmalar baş verirdi. Bu hal 1979-cu ilin yazında və yayında daha kəskin forma aldı. 1980-ci ilin aprel və may aylarında baş verən hadisələr isə artıq məsələnin kifayət qədər qorxulu və dəhşətli nəticələrə gətirəcəyindən xəbər verirdi. Bundan ehtiyatlanan prezident Bəni Sədr mayın 14-də kürdlər üçün bir muxtariyyət planının prinsip olaraq qəbul edildiyini bildirdi.

Kürdlərin bu müqavimət hərəkatı zamanı onların öz aralarında da fərqli baxışların olduğu üzə çıxdı. Əgər onların bir qismi Əbdürrəhman Qasımlunun başçılıq etdiyi Kürdüstan Demokratik Partiyasının arxasınca gedirsə, digər qism sünnilərin lideri şeyx İzəddin Hüseyninin ətrafında birləşmişdir. Təbiidir ki, bu parçalanma kürdlərin mübarizəsini xeyli zəiflədirdi. Onları kürdlərin yaşadığı qonşu İraq və Türkiyə də müdafiə etmədi. Halbuki, İran şahı kürdlərdən İraq dövlətinə qarşı təzyiq vasitəsi kimi çox istifadə etmişdi.

Onu da qeyd etmək istərdik ki, yaranmış şəraitdən yararlanmaq üçün İraq Xuzistanda yaşayan ərəbləri Humeyni rejiminə qarşı qaldırmışdı. İraqın 1980-ci ilin sentyabrında İranla müharibəyə başlamasında Xuzistan amilinin də yeri vardır.

Qeyd etmək lazımdır ki, şahın devrilməsində Azərbaycan türklərinin və onların lideri ayətullah Şəriət Mədarinin mühüm rolu olmuşdur. Onun xidməti ayətullah Humeynidən heç də az deyildi. Hətta o, dini məqam baxımından Humeynidən irəlidə idi. Tarixçilərin fikrincə, daha ilk günlərdən Humeyni Şəriət Mədaridən hətta çəkinirdi. Bunun da nəticəsi o oldu ki, iki lider arasında bəzi mübahisəli fikirlər meydana çıxdı. Şəriət Mədari şiə din adamlarının mərkəzi hökumətdə fəal rol oynamasına qarşı idi. Bu görüş ayrılıqları şiddətləndikcə Azərbaycan türkləri daha mütəşəkkil olmaq üçün özlərinin Müsəlman Xalqın Cümhuriyyətçi partiyasını qurdular. Bundan sonra onların Humeyni və inqilab keşikçiləri ilə mübarizəsi daha da yüksəldi. Azərbaycan türklərinin 80%-i 1979-cu ilin dekabrında keçirilən konstitusiya referendumunu baykot etmişdi. Bu səbəbdən Humeyni tərəfdarları Şəriət Mədarinin Qumdakı evinə basqın etdilər. Təbrizdə də «inqilab keşikçiləri» müəyyən tədbirlərə əl atdılar. Tərəflər arasında toqquşmalar baş verdi və qarşıdurmalar getdikcə şiddətləndi. Müsəlman Xalqın Cümhuriyyətçi partiyasının baş qərargahına basqınlar oldu və bir neçə adam öldürdü. Humeyni tərəfdarlarının 1980-ci ilin yanvar ayına qədər davam edən hücum və təzyiqləri nəticəsində partiya dağıdıldı və Şəriət Mədari də Humeyniyə qarşı olan tənqidlərini yumşaltdı. Lakin bütün 1981-ci il boyunca Təbrizdə zaman-zaman qarşıdurmalar əksik olmadı. Nəhayət, 1982-ci ildə Şəriət Mədari ev dustağı edildi. Doğrudur, yerli ruhanilərin vasitəçiliyi ilə qanlı hadisələrə və hərəkətlərə son qoyuldu. Lakin bu hələ o demək deyildi ki, hakimiyyət orqanları milli məsələ ilə bağlı mövcud problemləri həll edə biliblər və ya ona hazırdırlar.

Ümumiyyətlə inqilabın nəticələrindən siyasi planda qazanan ilk növbədə ruhanilər oldular. Humeyni və tərəfdarlarının bu inqilabın nəticələrindən maddi planda yararlanacağına söz verdikləri «məzlumlar» yenə də çox şey qazana bilmədilər. «İslam iqtisadiyyatı»nın elan etdiyi «hər kəsdən bacarığına görə, hər kəsə möminliyinə görə!» şüarının reallaşdırılması istiqamətində görülən tədbirlər yoxsulların vəziyyətində əsaslı dönüş yarada bilmədi və sosial bərabərsizliyi aradan qaldırmaq gücündə olmadı.

İran islam hakimiyyəti liderlərinin elan etdikləri «islam iqtisadiyyatı» anlayışının təcrübədə nə məna daşıdığı bu günə kimi tam aydın deyildir. İran islam ideoloqları həm kapitalizmi, həm də kommunizmi rədd edib, onlara qarşı özlərinin məxsusi «islam iqtisadiyyatı»nı qoymağı elan etməkdən o yana getməmişlər. İran İslam Respublikası yaranandan sonra da dövlət, kooperativ və xüsusi mülkiyyət saxlanılmışdır və iqtisadiyyatın müvafiq olaraq üç bölməsi mövcuddur. Yeganə yenilik ölkənin iqtisadiyyatına xaricilərin qarışması və təsir etməsi halının ləğv olunmasıdır. İranın şahlıq dövründə yürütdüyü iqtisadi inkişaf planından imtina edilmişdir. Amma demək olmaz ki, azad kapitalist bazarı yoxdur. O vardır və fəaliyyət də göstərir. Eyni zamanda şahın dövründə yaradılmış

nəhəng dövlət bölməsi də var gücü ilə fəaliyyət göstərməkdədir. İranın əvvəlcə az qala bütün dünya ilə, sonralar əsasən Qərb dövlətləri, onların içərisində ilk növbədə ABŞ-la qarşıdurma şərtləri zəminində belə bu ölkənin kapitalist dünyası ilə əlaqəsini kəsməsindən danışarkən ən azı yalan danışmamaq üçün ehtiyatlı olmaq lazımdır. İran neftinin satılması və müharibə ilə əlaqədar olaraq silah alınmasına tələbatın artması İran üçün həyatı əhəmiyyət kəsb edən zərurət olmuşdur.
Ümumiyyətlə Humeyni rejimi yarandığı gündən istər yaxın, istərsə də uzaq ölkələrlə münasibətlərində heç də hər zaman uğurlu kurs yürütməmişdir söyləsək, çox az səhv etmiş olardıq. Bu baxımdan qonşu ərəb ölkələri ilə münasibətlər çox xarakterikdir. Ərəb ölkələrindən Suriya, Liviya, Cənubi Yəmən kimi ölkələr və Fələstin Azadlıq Təşkilatı İran İslam Respublikasının yaranmasını rəğbətlə qarşıladılarsa da, körfəz ölkələri, Səudiyyə Ərəbistanı və İraq isə narahat olmuşdular. Bu, birincisi, ondan irəli gəlirdi ki, İranda monarxiyanın ləğvi regionda ərəb monarxiyaları üçün bir nümunə ola bilərdi. İkincisi, bu ölkələrdə, xüsusilə də İraqda kifayət sayda şiə əhali var idi və onlar hər an İrandakı hakimiyyətə yiyələnmiş şiə liderlər tərəfindən dəstəklənə bilərdilər. Müşahidəçilərin fikrincə, bu elə belə də olmuşdur və Humeyni rejimi ilk gün-dən etibarən Orta Şərqdəki şiələri və ərəb monorxiyalarındakı xalqı mövcud rejimə qarşı mübarizəyə təşviq etmişdir. 1979-cu ilin sentyabr-oktyabr aylarında İraqda, Küveytdə, Bəhreyndə, Səudiyyə Ərəbistanının Həsa əyalətində şiələrin etiraz aksiyaları baş vermişdir və bütün bunlar da həmin təşviqin nəticəsi kimi dəyərləndirilir. Təbiidir ki, bu zəmində İranla qonşuları arasındakı münasibətlər pisləşməyə bilməzdi.
Həmin dövrdə bütün dünyada çox böyük əks-səda doğurmuş hadisələrdən birisi də 1979-cu ilin 4 noyabrında Humeyni tərəfdarı olan tələbə gənclərin Tehrandakı ABŞ səfirliyinə hücum etməsi, səfirliyin 63 əməkdaşını girov götürməsidir. Onlar ABŞ hökumətindən tələb edirdilər ki, müalicə üçün oraya getmiş şah İrana qaytarılsın. ABŞ cavab olaraq bir sıra tədbirlər gördü. Əvvəlcə İranın ölkə banklarındakı bütün hesablarını dondurdu. Sonra İran sahillərinə doğru hərb gəmiləri göndərdi. Məsələ BMT-nin Təhlükəsizlik Şurasında müzakirə edildi və İranın bu hərəkətini pisləyən qərar qəbul olundu. 1980-ci ilin 7 aprelində İranla diplomatik münasibətlər kəsildi. ABŞ vətəndaşlarının İrana getməsi qadağan edildi. ABŞ-ın xahişi ilə Avropa İqtisadi Birliyi, ərzaq və tibbi ləvazimatlar istisna olunmaqla İrana qarşı iqtisadi sanksiyalar tətbiqinə qərar verdi.
Bütün bunların heç bir nəticə vermədiyini görən ABŞ aprelin 24-də Hind okeanındakı hərbi donanmasından 8 helikopterində (vertalyotında) 90 nəfərlik bir desant dəstəsini Tehranın 400 km-liyində yerə endirməyə cəhd göstərdi. Lakin bu cəhd tam uğursuzluqla nəticələndi.
Nəhayət, məsələnin həllinə beynəlxalq birlik daha geniş ölçüdə qarışmalı oldu. Məsələn, mayın 17-22-də İslamabadda toplanan İslam Konfransı Təşkilatı ABŞ-ın İrana desant çıxarmaq cəhdini pisləməklə yanaşı İrandan da girovlar məsələsinin həllini tələb etdi. 18 mayda Avropa İqtisadi Birliyi üzvü olan ölkələrin İrana qarşı iqtisadi sanksiyaları gücləndirməsinə qərar verildi. Haaqa Beynəlxalq Məhkəməsi və Sosialist İnternasionalının cəhdləri də əlavə olunmaqla bütün bu tədbirlərin heç biri İranı yumşaltmadı. Məsələnin həllində Əlcəzair vasitəçilik etməyə başladı. Artıq həmin arada İraqla da müharibə aparan İran geri çəkilmək məcburiyyəti qarşısında qalmışdı. Əgər əvvəllər Humeyni ABŞ-ın İrana qarşı etdiyi «xətalar» üçün üzr istəməsini tələb edirdisə, indi o, həmin tələbdən vaz keçdi. ABŞ banklarındakı dondurulmuş İran hesablarının açılması şərtilə 1981-ci ilin 21 yanvarında (40-cı ABŞ prezidenti Reyqanın öz vəzifəsinə başladığı gündə-müəl.) girovlar azad edildi.
İraqla müharibə məsələsinə gəlincə, o, 80-ci illərin əvvəlindən yalnız İranın islamçı siyasətçilərinin yürütdüyü xarici siyasət kursunun məzmunu deyil, yeni respublikanın həyat tərzinin məzmunu oldu desək, bəlkə də daha doğru söyləmiş olardıq. Belə ki, daxili inkişafın həll olunmaz çətinliklərindən yaranmış ümumxalq ümüdsüzlüyünü ölkənin dini liderləri fəal xarici siyasət kursu ilə aradan qaldırmaq istəyirdilər. Həmin kursun da əsasında imam Humeyninin «nə Qərb, nə Şərq» tezisi

dayanırdı. Bu isə o demək idi ki, İran öz xarici siyasətində həm kapitalist ölkələri, həm də sosialist ölkələri ilə əlaqə saxlamaqdan uzaqda dayanır və öz əsas diqqətini qonşu müsəlman və inkişaf etməkdə olan ölkələrlə əlaqələr qurmağa yönəldir. Əslində isə bu kurs «islam inqilabı» ixracı yolu ilə «ümumdünya müsəlman dövləti» yaratmaq planının bir hissəsi sayıla bilərdi və bundan başqa da bir şey deyildi. İran liderlərinin fikrincə islam həyat normalarının yayıla biləcəyi ölkələr arasında İraq xüsusi yer tuturdu. İraq əhalisinin yarısının şiə olması İran liderlərini bu qənaətə gətirirdi. O biri tərəfdən həmin qənaəti reallaşdırmaq üçün də lazımi bəhanələr var idi.
Bunlardan birisi İraqda kürdlərin qiyamına İranın dəstək verməsi idi. Belə ki, uzun zamandan bəri rəsmi Bağdada qarşı mübarizə aparan kürdlərlə bağlanmış sazişlər pozulduğundan 1974-cü ilin aprelində tərəflər arasında silahlı toqquşmalar yenidən başlandı və tədricən bir vətəndaş müharibəsi halına gəldi. İran gizli yollarla kürdlərə müxtəlif silahlar, xüsusilə top və tankdan müdafiə silahları ötürməklə faktik olaraq İraqda gedən vətəndaş müharibəsinin iştirakçısına çevrildi. O biri yandan İraq ordusunun hücumlarına davam gətirə bilməyən kürd silahlıları İrana sığınırdı və 1974-cü ilin sonlarında onların sayı 130 min nəfərə çatmışdı. Bu zəmində iki dövlət arasındakı münasibətlərdə bir gərginlik hökm sürürdü. İkinci bəhanə isə bu dövlətlər arasında mövcud olan qarşılıqlı ərazi iddiaları idi. Bu baxımdan Şətt əl-ərəb çayı boyunca sərhədlər barəsində mübahisələr həmişə müzakirə obyekti olmuşdu və indi də qalırdı.
Doğrudur, hələ 1975-ci ildə Əlcəzairdə OPEK ölkələrinin toplantısında Əlcəzair prezidenti H.Bumədyənin təşəbbüsü ilə İran şahı və İraq prezidentinin müavini S.Hüseyn arasında mayın 6-da bir saziş imzalanmışdı. Sazişə görə İraqla İran arasındakı Şətt əl-ərəb çayı sərhədləri yenidən təsbit edilmişdi və bunun müqabilində İran kürdlərə yardımı kəsmiş, İraqda gedən müharibə sona yetmişdi. Lakin şahın devrilməsi və Humeyni rejiminin yaradılmasından sonra həmin problemlərin yenidən müzakirəyə çıxarılmasına cəhdlər edildi. Bunda hər iki dövlətin liderlərinin maraqlı olduğunu da söyləmək lazımdır. Çünki, hər iki lider öz daxili problemlərini qonşu ölkəyə qarşı aparılan uğurlu bir müharibə hesabına yoluna qoymaq istəyində idi.
Nəhayət, 1980-ci ilin 22 sentyabrında hərbi əməliyyatlar başlandı və İran-İraq müharibəsi adı ilə tarixə daxil bu qanlı proses 8 il davam etdi. Hərbi əməliyyatların gedişində uğurlar gah bu, gah da digər tərəfdə olurdu. İranın güclü və böyük canlı qüvvəsi var idisə, İraq aviasiya, tank və artilleriya sahəsində üstün idi. Dəfələrlə aparılmış geniş miqyaslı hücum və əks-hücum əməliyyatları neft mədənləri və zavodlarının bombardman edilməsi, şəhərlərin raket atəşinə tutulması, çoxsaylı insan təlefatından başqa heç nəyə gətirmədi, tərəflərdən heç biri azacıq da olsun qələbə sevincini yaşamadı. Axır nəticədə Birləşmiş Millətlər Təşkilatının və digər beynəlxalq təşkilatların, xüsusilə İslam Konfransı Təşkilatının vasitəçiliyi ilə 1988-ci ilin 20 avqustunda bütün cəbhələrdə atəşkəs rejiminin tətbiqinə başlanıldı və bununla da müharibə dayandırıldı. Əslində isə Humeyninin başçılıq etdiyi İran hakimiyyətinin barışa getməsinin əsas səbəbi ölkənin çox böyük insan itkisi və böyük maddi zərərlərə məruz qalması idi. Hərbi əməliyyatların gedişində İran tərəfinin ölü olaraq itirdiyi insanların sayı 600 min nəfərdən çox idi, (hər iki tərəfdən isə 1 mln nəfərdən çox-müəl.) yaralıların sayı isə daha artıq olmuşdur. 40 mindən çox hərbçi əsir düşdü. Hərbi əməliyyatların aparılmasına xərclənən vəsaitin, neft mədənləri və zavodlarının dağıdılmasından dəyən zərərin miqdarı yüz milyonlarla dollar məbləğində ölçülürdü.
İran müharibədə heç bir uğur qazanmasa da, həm də uduzmadı. Daha dəqiq desək, ölkəni idarə edənlər uduzmadı. Uğursuz müharibə Humeyninin hakimiyyətini nəinki zəiflətmədi, əksinə, ona bütün dünyada haqq işi uğrunda cəsarətlər göstərən bir mübariz şöhrəti gətirdi. Həqiqətən də ömrünün sonuna kimi Humeyninin nüfuzu çox yüksək olaraq qaldı. Dünyanın bir sıra ölkələrindəki şiə müsəlmanlar onu özlərinin dini rəhbəri sayırdılar.
Qeyd etmək lazımdır ki, müharibənin ilk illərində mollaların təbliğatına inanan insanlar nəinki

mübahisəli torpaqları geri qaytarmaq üçün, həm də islam inqilabını qonşu ölkələrə yaymaq üçün ölümə getməyə belə hazır idilər və fədakarlıqla döyüşürdülər. Lakin bu təşəbbüskarlıq və fədakarlıq dövrü uzun sürmədi. Az sonra ümidsizlik və narazılıq əhval-ruhiyyəsi hakim kəsildi və bu, rejim üçün ciddi təhlükəyə döndü. Dağıntılar, infiltrasiya, kütləvi işsizlik, qonşu ərəb ölkələri ilə gərgin münasibətlərin yaranması «islam inqilabı ixracı» təcrübəsinin əsas nəticələri oldu. Avantürist hərbi əməliyyatların acınacaqlı yekunu İranın ruhani rəhbərliyi liderlərini məcbur etdi ki, öz əməllərinə bir qədər tənqidi yanaşsınlar və etdikləri xətanın nəticələrinin böyüklüyünü dərk etsinlər. Elə buna görə idi ki, İranın ruhani liderləri istər daxili, istərsə də xarici siyasət kursuna yenidən baxmalı oldular və ona düzəlişlər etdilər. Artıq onlar bəyan edirdilər ki, «islam inqilabı ixracı» dedikdə bunun zor gücünə həyata keçirilməsi kimi yox, «islam inqilabı» dəyərlərini başqa xalqlara dərindən izah etmək kimi başa düşülməlidir. Başqa bir mühüm hadisə isə məclisin deputat qrupunun imam Humeyniyə Nəzarətçilər Şurası ilə nazirlər kabineti arasındakı qarşılıqlı münasibətlərdə hökumətin fəaliyyət müstəqilliyinin artırılması naminə dəyişikliklər edilməsi təklifi ilə müraciəti olmuşdur. Humeyni deputatların gətirdikləri əsaslı dəlillərlə razılaşmaq məcburiyyətində qaldı.
1989-cu ildə Humeyninin ölümündən sonra onun tutduğu ali dini rəhbər vəzifəsinin əhəmiyyəti bir qədər azaldı, (Humeynidən sonra İranın ali dini rəhbəri vəzifəsini S.Ə.Xaməneyi yerinə yetirməkdədir) bunun əvəzində isə prezidentin rolu artdı. Təbiidir ki, respublika prezidentinin mövqeyinin möhkəmlənməsi teokratik rejimin nəinki sona çatması, heç zəifləməsi demək deyildir. Amma bununla yanaşı yuxarı hakim dairələrdə daha mühafizəkar qüvvələrin nüfuzunun zəifləməsini də inkar etmək olmaz.

* * *

.

## İran 90-cı illərdə

Daxili siyasi vəziyyət. İrəlidə deyildiyi kimi, İran İslam Respublikasının ilk prezidenti Bəni Sədr olmuşdur. Onun istefaya göndərilməsindən sonra həmin vəzifəni tutmağa iddialı olan Behişti 1991-ci ilin iyun ayında öldürüldü və nəhayət, iyulun 24-də Məhəmməd Əli Rəcai prezident seçildi. Lakin o da avqustun 30-da öldürüldü. Oktyabrın 20-də keçirilən seçkilərdə Seyid Əli Xaməneyi qalib gəldi və o, ölkənin üçüncü prezidenti kimi öz vəzifəsində konstitusiya ilə nəzərdə tutulan müddətdə qala bildi. Yəni, S.Ə. Xaməneyi 1985-ci ildə ikinci dəfə də dövlət başçısı postuna yiyələndi və 1989-cu ilə qədər həmin vəzifədə fəaliyyət göstərdi. Növbəti prezident Əli Əkbər Haşimi Rəfsəncani də öz sələfi kimi 1989-cu və 1993-cü illərdə iki müddətə dövlət başçısı postunu tutmuşdur. 1997-ci ildən isə həmin vəzifədə hazırkı prezident Seyid Məhəmməd Xatəmi fəaliyyət göstərməkdədir. Qeyd etmək lazımdır ki, İranın son tarixində ən böyük hadisə sayılan İran-İraq müharibəsi əvvəlki iki prezidentin və daha çox S.Ə.Xaməneyinin dövrünə düşürsə, həmin müharibənin ölkəyə gətirmiş olduğu ağır nəticələri aradan qaldırmaq, dinc dövr üçün İranın iqtisadi və siyasi inkişaf kursunu müəyyənləşdirmək sonuncu iki prezidentinə Ə.Rəfsəncaninin və S.M.Xatəminin hakimiyyəti illərinə təsadüf edir. Başqa sözlə desək, İranın 90-cı illər tarixindəki uğurlar və uğursuzluqlar onların adı ilə bağlıdır.
Ümumiyyətlə İran-İraq müharibəsinin dayandırılmasından və imam Humeyninin ölümündən sonra ölkədə hansı əsaslı dəyişikliklər baş vermişdir?
Müşahidəçilərin fikrincə, haqqında danışılan dövrdə ölkənin istər siyasi, istərsə də iqtisadi inkişaf kursunda elə bir ciddi dəyişiklik olmamışdır. Yenə də ölkə islam fundamentalistləri tərəfindən idarə olunur. Onlar kifayət qədər güclüdürlər. Ölkəni müəyyən olunmuş istiqamətdə aparmaqda qərarlıdırlar. «İslam inkişaf yolu»nda inamla irəliləmək üçün yollar axtarırlar. Nəzərə çarpan yeganə hal ondan ibarətdir ki, ölkənin yeni rəhbərliyi xarici siyasi aksiyalarında bir qədər təmkinlilik, daxili

siyasi kursda isə bir qədər az radikallıq göstərirlər. Başqa sözlə desək, həmin sahələrdə bir qədər yumşalma hiss olunur. Lakin onların fəaliyyət prinsipləri və yürütdükləri kursun başlıca istiqamətləri, demək olar ki, dəyişilməz olaraq əvvəlki kimi qalmaqdadır. Bununla yanaşı, mövcud rejimə qarşı mübarizənin də, hətta zəif olsa belə, davam etdiyini söyləmək lazımdır. İran 90-cı illərə məhz bu durumun göstəriciləri ilə daxil olmuşdur. Belə ki, 1990-cı ilin 11 fevralında inqilabın 11 illiyi münasibətilə Tehranda beş milyon adamın iştirak etdiyi mitinq keçirilmişdir. Tarixçilərin fikrincə, mitinq iştirakçılarının sayı yetərincə olsa da, əvvəlki dövrlərlə müqayisədə az idi. Bu, rejimin hələ də güclü olmasını göstərsə də, həm də tədricən öz tərəfdarlarını itirməsinin də göstəricisi idi. O biri tərəfdən, beş gün sonra Tehranda daha bir nümayiş olmuşdur. Ancaq bu nümayiş rejim əleyhinə idi, irəli sürdüyü tələblər isə çox cəsarətli və kəskin idi: fundamentalistlərin hökumətdən qovulması, hətta «Humeyni rejimi»nin ləğvi və s. Təbiidir ki, hakimiyyət qüvvələri nümayişçilərə qarşı zor tətbiq etdi. Buna baxmayaraq onlar geri çəkilmədilər. Bu səbəbdən də hakimiyyət qüvvələri öz mövqelərini qorumaq üçün müxalifət tərəfdarlarına qarşı sərt tədbirlərə əl atmağa başladı. Müxalifət hərəkatının tanınmış üzvlərindən K.Ricavi aprelin 24-də İsveçrədə, keçmiş baş nazir Ş.Bəxtiyar 1991-ci ilin 6 avqustunda Parisdə qətlə yetirildi. Bundan əlavə rejimin qorunması üçün bir sıra sənədlər qəbul edildi. Bunlardan «İmam Humeyninin xatirəsi və fəaliyyətinin qorunması» qanununa əlavəyə əsasən əks fikirli şəxs 74 qamçı zərbəsi, 3 il həbs və böyük məbləğdə cəriməyə məruz qalırdı. Rejimə qarşı kiçik bir etiraz həbslə nəticələnirdi. Əks fikirlilərə qarşı edamdan tutmuş uzun müddətli həbslərə qədər müxtəlif cəzalar tətbiq olunurdu. İş o yerə çatmışdı ki, 1990-cı ilin 19 noyabrında BMT-nin 99 səhifəlik məruzəsində İranda insan hüquqlarının kütləvi şəkildə pozulması halları qeydə alınmış və ciddi şəkildə pislənilmişdir. İqtidar-müxalifət qarşıdurmasının kəskinləşməsi nəticəsində təkcə 1990-cı ildə İrandan Avropaya siyasi mühacirət edənlərin sayı 20 min nəfərə çatırdı.

1992-ci ilin yanvarından hökumət xarici videofilmlərin göstərilməsinə qarşı mübarizəyə başlamışdı. Bu işin təşəbbüskarı o zamankı mədəniyyət naziri, indiki prezident S.M.Xatəmi olmuşdur. Bəhanə də bu idi ki, həmin filmlər gənclərin tərbiyəsinə mənfi təsir göstərir.

Həmin ilin ən ciddi hadisələrindən aprelin 5-də İran təyyarələrinin müxalifətçi «Mücahidan-e xəlq» təşkilatının hərbi strukturu olan Milli Azadlıq Ordusunun İraqda yerləşən bazasına zərbələr endirməsi sayılır. Bu zaman bir təyyarə vuruldu və həm də cavab olaraq tarixdə bənzəri olmayan bir aksiya həyata keçirildi: İranın BMT-dəki nümayəndəliyinə, Bonn, Haaqa, Oslo, Kopenhagen, Bern, Paris şəhərlərindəki səfirlik və konsulluqlarına, İran hava şirkətinin Londondakı nümayəndəliyinə eyni zamanda basqınlar oldu və həmin təşkilatlara kifayət qədər maddi xəsarət yetirildi.

Bunu da qeyd etmək lazımdır ki, İranın ruhani rəhbərliyindəki radikal qüvvələrin müxalifətə qarşı sərt tədbirləri cəmiyyətdə mötədil islamçıların mövqelərini möhkəmləndirdi. Bunun göstəricisi idi ki, 1992-ci ilin parlament seçkilərində prezident Rəfsəncaninin ətrafında toplaşan mötədillər yerlərin 68%-ni qazandılar. Radikalların 13 il sürən üstünlüyünə son qoyuldu. Bununla da, «Allahsız Qərb»lə əlaqələr yaradılması və ölkənin xarici investorlar üçün açılması xətti tərəfdarı olan Rəfsəncaninin fəaliyyət imkanları genişlənmiş oldu.

Ümumiyyətlə 90-cı illər daxili siyasi və ictimai həyatda dini prinsiplərin gündəlik davranış normaları kimi bərqərar edilməsi istiqamətində praktik fəaliyyətin canlanması ilə xarakterikdir. Rəsmi kursa qarşı adi bir etiraz kəskin reaksiya doğururdu. Vaxtilə imam Humeyninin özünə varis təyin etdiyi ayətullah Müntəziri ilə baş verən hadisələr bu baxımdan bir nümunə ola bilər. O, Humeyni ilə bağlı tənqidi bir mülahizəyə görə 1993-cü ilin fevralında həbsə alındı. Dini rejimin möhkəmləndirilməsi istiqamətində görülən tədbirlərdən birisi də mayın sonlarında «Qeyri-islami təsirlərdən cəmiyyətin qorunması» haqqında qanuna əsasən açıq-saçıq paltar geyən qadınların və əxlaqsız filmlər yayan şəxslərin ölümlə cəzalandırılması oldu. 1995-ci ilin aprelində «İran xalqının Qərbin mədəni təcavüzündən qorunması» haqqında qanun qüvvəyə mindi. Qanuna əsasən bütün evlərin damlarındakı

«boşqab» peyk antennalar dörd gün ərzində yığışdırıldı. May ayında isə keçmiş sovet respublikalarından gələn 100-dən çox qadın islamın qadağan etdiyi tərzdə geyindiklərinə görə Tehran polisi tərəfindən həbsə alındı. 30 avqustda qəbul olunmuş qanuna görə isə şəhərlərdəki mini avtobuslar iki yerə -qadın və kişi hissələrinə bölündü. (Şəhərlərarası avtobuslarda bu tədbir 1992-ci ildən tətbiq olundu - müəl.). Ümumiyyətlə növbəti parlament seçkilərinə kimi radikal qüvvələr öz mövqelərini yenidən bərpa edə bildilər və 1996-cı ilin mart ayında keçirilən seçkilərdə yerlərin çoxunu tuta bildilər. Doğrudur, 1997-ci ildə keçirilən sonuncu prezident seçkilərində mötədillərin nümayəndəsi S.M.Xatəmi qalib gəldi. Seçkiqabağı təbliğatında o, dünyanın bir sıra ölkələri ilə, xüsusilə də müsəlman dövlətlərilə əlaqələri yaxşılaşdırmağa çalışacağına, qadınlar və gəncləri vəzifələrə çəkəcəyinə, inflyasiyanın qarşısını alacağına və qiymətlərə nəzarət qoyacağına söz vermişdi. S.M.Xatəminin «Qərbin ən yaxşı xüsusiyyətlərinə yiyələnmək» sözləri mötədil prezidentin ölkənin inkişafı naminə qərblə, hətta «ən böyük şeytan» ABŞ-la əlaqələr qurmağa meyl göstərməsindən xəbər verir. Lakin onun prezident seçilməsi ilə də radikal qüvvələrin hücumu başlandı. Bunun kulminasiya nöqtəsi isə 1998-ci ilin 4 aprelində S.M.Xatəminin ən yaxın tərəfdarlarından olan Tehran valisi Q.Kərbasçının həbsi oldu. Heç bir əsas olmadan rüşvətxorluqda ittiham olunan valinin həbsi ölkədə böyük əks-səda doğurdu. Yüz minlərlə tehranlı, xüsusi ilə də tələbə gənclər şəhərin küçələrinə töküldü. 400 şəhər valisi dini rəhbər Xamaneyiyə məktubla müraciət etdi. Bütün bunların nəticəsində Q.Kərbasçı aprelin 14-də azad edildi. Aprelin sonlarında ayətullah Müntəzirinin mitinq keçirən tərəfdarlarının zindana atılması ilə ölkədə yenidən iğtişaşlar başladı. Qeyd etmək lazımdır ki, ayətullah Müntəzirinin özü isə hələ 1997-ci ildən ev dustağı idi.
Yeni prezident S.M.Xatəmi öz fəaliyyətinə sələfi Rəfsancanidən ona miras qalan 22 nəfər kabinet üzvündən beşini saxlayıb qalanlarını istefaya göndərməklə başladı. Seçkiqabağı verdiyi vədə əməl edərək müavinlərdən birini qadın təyin etdi. O, 37 yaşlı Məsumə Ebtekar oldu. Minimum islahatlar keçirildi. Qadınlara bədii kitab oxumaq hüququ verilməsi, məhbuslarla yaxşı rəftar edilməsi və s. kimi tədbirlər bu qəbildəndir.
S.M.Xatəminin seçkiqabağı elan etdiyi vədlərin yerinə yetirilməsi istiqamətində müəyyən addımlar atması sonrakı illərdə də müşahidə edilmişdir. Bu baxımdan onun 1998-ci ildə BMT Baş Məclisinin işində iştirak etmək üçün Nyu-Yorkda olarkən iranlı mühacirlərlə vətən arasında münasibətləri möhkəmləndirmək üçün təşəbbüslər göstərməsi maraq doğurur. O, həm də BMT Baş Məclisində çıxış edərkən 2001-ci ilin mədəniyyətlərin dioloqu ili elan olunması təklifini verdi. Təbiidir ki, sonuncu təklif prezident S.M.Xatəminin beynəlxalq aləmlə münasibətlərdəki gərginliyi yumşaltmaq haqqında verdiyi vəddən irəli gəlirdi. Bu istəyin tərkib hissəsi kimi Tehranda İslam Konfransı Təşkilatının zirvə toplantısı başa çatdıqdan sonra onun 1998-ci ilin əvvəllərində söylədiyi fikirləri təkrar etmək istərdik: «hər biri (Qərb və Şərqmüəl.) öz ən ənə və dini dəyərlərinə malik olsalar da bu, münaqişələrə əsas ola bilməz». S.M.Xatəmi ABŞ-la mədəni mübadilənin mümkünlüyünü də dilə gətirdi. ABŞ prezidenti B.Klinton onun sözlərini «ümidverici» adlandırmış və İranla dialoqa hazır olduğunu bildirmişdir.
S.M.Xatəminin verdiyi vədlərdən birisi də ölkədə vətəndaş cəmiyyəti qurmağa səy göstərəcəyi idi. Bu baxımdan 1999-cu ilin fevralında bütün ölkəboyu yerli şuralara seçkilərin keçirilməsini qeyd etmək lazımdır. Halbuki bu haqda qanun çoxdan mövcud idi və o, demək olar ki, tamam unudulmuşdu. Hazırda daxili siyasi həyatda mötədillərin mövqeləri möhkəmlənməkdədir. Bunun ən ciddi nəticəsi özünü 2000-ci ilin yazında keçirilən parlament seçkilərində göstərmiş və məclis üzvlüyünə seçilənlərin böyük əksəriyyəti onların sırasından olmuşdur.
İqtisadi vəziyyət. Qeyd etmək lazımdır ki, İraqla müharibə ölkə iqtisadiyyatına ağır zərbələr vurmuşdu. Ümummilli məhsul istehsalının həcmi 11% azalmış, həyat səviyyəsi 2 dəfəyə qədər aşağı düşmüşdü. Minlərlə yüksək ixtisaslı insan ölkəni tərk etmişdi. Ölkəyə dəymiş iqtisadi yaraların sağaldılması üçün neft satışından əldə olunan gəlirdən kənarda başqa maliyyə mənbəyi yox

səviyyəsində idi. Neft gəlirləri də, təbiidir ki, bütün ehtiyacları ödəmək səviyyəsində deyildi. Mühacirətə getmiş varlı iranlılara dəfələrlə müraciət edilirdi ki, ölkəyə qayıtsınlar və onların təhlükəsizliyinə təminat verilir. Məqsəd də bu idi ki, ehtiyac duyulan kapital onların hesabına, az da olsa, ödənilsin. Lakin həmin cəhdlər cavabsız qaldı. Bütün bunlar azmış kimi, ölkədə bir sıra təbii fəlakətlər də baş verirdi. 1990-cı və 1991-ci illərdə baş vermiş zəlzələlər, 1991-ci ildə baş vermiş daşqınlar, 1991-ci ilin əvvəllərində İraqda gedən vətəndaş müharibəsi ilə əlaqədar olaraq yarım milyondan çox adamın İrana qaçması əlavə çətinliklər yaradırdı. Müharibədən sonrakı illəri «sabitləşdirmə və quruculuq dövrü» elan etmiş İran ağır şərtlər qarşısında qalmışdı və yuxarıda deyildiyi kimi, bunların da başında maliyyə çatışmazlığı dururdu.

İran dövləti müharibədən sonra ölkə iqtisadiyyatının bərpası və inkişafı yollarını işləyib hazırlamaq üçün xüsusi komissiya yaratdı. 1989-cu ildə müharibə nəticəsində bərbad hala düşmüş iqtisadi infrastrukturu bərpa etməyi nəzərdə tutan I beşillik plan qəbul olundu. Qeyd etmək lazımdır ki, Ə.Ə.Rəfsəncani prezident seçildikdən sonra İranın ehtiyac duyduğu maliyyə çətinliklərini aradan qaldırmağın ən səmərəli yolunu ərəb ölkələri və Qərb ilə əlaqələri yaxşılaşdırmaqda, bununla da beynəlxalq maliyyə mərkəzlərinin və iri maliyyəçilərin nəzərdə tutulan layihələrə kapital qoymasına nail olmaqda gördü. Onun bu istiqamətdə çalışmaları nəticə verdi. Körfəz müharibəsində İranın bitərəf qalması da bu məsəldə önəmli oldu. İlk olaraq Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı 1991-ci ilin əvvəlində İrana 250 mln dollar kredit verməyi qərara aldı. Ümumiyyətlə isə İran sonrakı illərdə də xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi kursunu davam etdirdi və 30 mld dollar əldə edə bildi. Təbiidir ki, bu da öz növbəsində İran sənayesinin inkişafını təmin etdi və onun illik artımı 3%-ə çatdı. Neft hasilatı və ixracının səviyyəsini yüksəltmək üçün artıq amerika bazarlarından belə imtina edilmirdi. 1991-ci ilin aprelində bağlanan bir müqaviləyə əsasən İran nefti Karib dənizindəki Aruba adasında olan ABŞ şirkətlərinə məxsus neftayırma zavodlarının bazalarına çatdırılmalı idisə, o biri müqaviləyə əsasən «Mobil» şirkətinin Yaxın Şərqdəki bazalarından birinə daşınılırdı. 1992-ci və 1994-cü illərdə Ukrayna ilə bağlanan müqavilələrdə də əsas yeri neft satışı tuturdu. İran ildə Ukraynaya 4 milyon ton neft və 3 mld kubmetr qaz satmağı, bunun əvəzində Ukraynadan şəkər, ət, buğda və s. ərzaq məhsulları, İsfahan metallurgiya zavodu üçün dəmir filizi və polad-prokat almalıdır.

1994-cü ildə elan edilmiş ikinci beşillik planda enerji daşıyıcılarının qiymətlərinin sərbəstləşdirilməsi, Çin modelinə uyğun özəlləşdirmə proqramının həyata keçirilməsi və bunun nəticəsində iqtisadiyyatın 60%-nin özəl bölməyə aid olması nəzərdə tutulurdu. Artıq həmin dövrdə İran rəhbərləri dövlət bölməsinin səmərəsizliyini görürdülər. Lakin bununla yanaşı ondan imtina da etmirdilər. Onların öz sözləri ilə desək, balanslaşdırılmış iqtisadi siyasət, yəni özəl bölməyə əlverişli fəaliyyət imkanları yaradılması ilə yanaşı dövlət bölməsinin də inkişafına çalışılması əsas inkişaf xətti olaraq saxlanılmaqdadır. Səmərəsiz istehsal sahələrinin saxlanılması və ümumiyyətlə iqtisadiyyata kapital qoyuluşunun artımı neftin hesabınadır. İslam inqilabından 1995-ci ilə qədər olan müddətdə İran neftdən 250 mld dollar civarında gəlir əldə etmişdir ki, onun da 95mld dollara yaxını 1990-1995-ci illərin payına düşür. İran hazırda gündə 4 mln barreldən artıq neft çıxarmaq imkanına malikdir. Bununla yanaşı qeyd etmək lazımdır ki, müşahidəçilərin rəyinə görə 1999-cu ildə neft hasilatı və ixracının səviyyəsi aşağı düşmüşdür. Qaz çıxarılması da ildən-ilə artır. İkinci beşillik planda qaz hasilatının iki dəfə artırılması nəzərdə tutulmuşdu. Əgər 1979-cu ilədək İran qazının çox böyük hissəsi Sovet İttifaqına satılırdısa, həmin ildən bu iş dayandırılmışdır. Hazırda İran qazının alıcıları da dəyişir və onların sayı artır. Bu baxımdan 1996-cı ildə Türkiyəyə qaz verilməsi üçün boru kəmərinin çəkilməsi haqqında razılaşmanı xüsusi ilə qeyd etmək lazımdır. Bu kəmər 1998-ci ildə işə düşübdür və onunla hər il Türkiyəyə 2 mld kubmetr qaz ixrac olunur.

Hələ buna qədər 1995-ci ilin sonunda Türkmənistan ilə də belə bir müqavilə imzalanmışdı. Əsasən

İranın maliyyələşdirəcəyi 140 km-lik qaz kəmərinin çəkilməsindən sonra türkmən qazı Türkiyə və Avropaya ixrac edilməyə başlanmışdır. 1997-ci ildə «Total» və «Şell» şirkətləri ilə Cənubi Farsdakı nəhəng qaz yataqlarının istismarı haqqında razılaşma əldə edilmişdir. Ümumiyyətlə bu tipli müqavilələr Rusiya, Kanada, Malayziya və s. kimi ölkələrlə də bağlanmışdır.
İqtisadiyyatın önəm verilən sahələrindən birisi də neft-kimya sənayesidir. İstilik-elektrik enerjisi istehsalına da diqqət verilir. Bu baxımdan Buşirdə AES-in tikintisinin və İsfahanda nüvə texnologiyası mərkəzi yaradılması işinin davam etdirilməsini qeyd etmək lazımdır.
İxrac məhsulları arasında neftdən sonra ikinci yeri xalı tutur. Onun ixracından illik gəlir 1-1,5 mld. dollar arasındadır. Ölkənin əmək qabiliyyətli əhalisinin 20%-i xalı istehsalı sahəsində çalışır.
İstər birinci (1989-1994-cü illər), istərsə də ikinci (1994-1999-cü illər) beşilliyini başlıca vəzifələri sırasında kənd təsərrüfatı istehsalı sahələrinin modernləşdirilməsi xüsusi yer tutmuşdur. Əlavə suvarılan əkin sahələrinin yaradılması hesabına ölkə üzrə məhsuldarlıq yüksəlmiş, məhsul istehsalı isə artmışdır. Məsələn, 1988-1996-cı illərdə buğda istehsalının artımı 50% olmuşdur. Əgər 1977-ci ildə 4 mln ton buğda istehsal olunurdusa, hazırda bu rəqəm 11 mln tona çatmışdır. 1998-ci ildə zəruri kənd təsərrüfat məhsullarının 80%-i ölkə daxilində istehsal olunmuşdur. Artıq belə ehtimal olunur ki, 2021-ci ildə kənd təsərrüfatı məhsulları istehsalının ümumi həcmi 300 mln tona çatdırılacaqdır. Əkinçiliklə yanaşı heyvandarlıq məhsulları istehsalı da yüksəlmiş və hazırda o, ümumi kənd təsərrüfatı məhsulları istehsalının 40%-ni təşkil edir. Qeyd etmək lazımdır ki, 1999-2000-ci il üçün iqtisadiyyatın yüksəlişi üçün 1 mlrd dollar vəsait ayrılmışdır və bunun 35%-i kənd təsərrüfatı üçün nəzərdə tutulmuşdur.
Bütün bunların nəticəsidir ki, ölkənin xarici ticarət balansında müsbət saldo yaranmışdır və bu rəqəm 5,5 mld dollardır. Eyni zamanda ölkənin xarici borcu da xeyli azalmışdır. Əgər bu rəqəm 1993-cü ildə 23,4 mld dollar idisə, o, 1998-ci ildə 3 mld olmuşdur və 2000-ci ildə 3 mld-a enməsi nəzərdə tutulmuşdur.
Ümumiyyətlə isə İran fəal xarici ticarət kursunu davam etdirir. Yuxarıda haqqında danışdığımız kimi ən başlıca ixrac məhsulları neft, qaz və xalı ilə yanaşı avtomobillər, təzə və quru meyvə, kürü, qoz-fındıq məmulatları, dərman məhsulları və s. dir. İranın Yaponiya, İtaliya, Fransa, Hollandiya, Lüksemburq, İspaniya, Almaniya, Cənubi Koreya, Cənub-Şərqi Asiya ölkələri, Rusiya, Qafqaz və Mərkəzi Asiya ölkələri ilə ticarət əlaqələri vardır.
Xarici siyasət. Bəlli olduğu kimi, İran islam inqilabı və İran İslam Respublikasının yaranması iki qütblü dünyanın olduğu bir zamanda baş vermişdir. Yeni yaranmış rejim ilk gündən «nə Qərb, nə Şərq», yəni nə ABŞ və Qərbi Avropa dövlətləri, nə də Sovet İttifaqı və Şərqi Avropa dövlətlərinin arxasınca və ya yanında getməyəcəyini, müstəqil siyasət yürütmək istəyini elan etdi. Lakin bu istək İranın beynəlxalq aləmdə təcridinə gətirməkdən o yana getmədi. Bütün dünyanın qəbul etdiyi təməl prinsiplərə sədaqətini elan edən İran inqilabdan az sonra İraqla müharibəyə girdi. Müharibə haqqında irəlidə danışıldığından bir daha ona qayıtmağa lüzum yoxdur. Sadəcə ona diqqəti cəlb etmək istərdik ki, müasir dünya nizamının təməl prinsiplərindən birisi də mübahisəli məsələlərin həllinə zorakı üsullardan imtina etmək və siyasi yollarla nail olmaqdır. Aparılan müharibə ən azı bu prinsipə zidd idi. İran müharibədən çıxdıqdan sonra öz xarici siyasətində o baxımdan çıxış edir ki, ölkə Yaxın və Orta Şərqdə xüsusi geopolitik mövqeyə və əhəmiyyətə malikdir. Dünyanın karbohidrogen ehtiyatlarının çox böyük hissəsi bu regionda yerləşir və hasil olunur, məhz oradan da müxtəlif ölkələrə dəniz və quru yolları ilə nəql olunur. Regionda həlli uzun çəkən Fələstin problemi var, müxtəlif vaxtlarda Ərəb-İsrail münaqişələri baş verir, İraq-Küveyt, İraq-İran müharibələri olubdur, fəallaşan Fələstin problemi, kürd problemi (məsələn, İraqda), digər xalqların öz hüquqlarını tələb etməsi (məsələn, elə İranın özündə) halları vardır. Məhz buna görə də İran kimi bir ölkənin özünü dünyadan təcrid etməsi şərtləri ilə yaşaması yalnız böyük çətinliklər yaratmaqla nəticələnə bilərdi.

Təbiidir ki, İranın islamçı siyasi rəhbərliyi vəziyyəti çox gözəl anlayırdı və müharibədən sonrakı dövrdə bu qapalı dairədən çıxmaq yolunda cəhdlər edirdi. İlk olaraq həmin dövrdə ABŞ-la kəskin olan münasibətlərin yumşaldılmasının bir zərurətə çevrildiyi dilə gətirildi. 1990-cı ilin 1 mayında parlament işləri üzrə prezident müavini A.Mohacerani bildirdi ki, ABŞ-la danışıqlar mümkündür və iki dövlət arasında əlaqələrin olmaması birinci növbədə İrana ziyandır. Çünki, ABŞ banklarında İrana məxsus hesablar dondurulub və haqqı ödənilmiş silahların ölkəyə gətirilməsinə Vaşinqton icazə vermir. Doğrudur, bu fikir kəskin tənqidlər və nümayişlərlə qarşılandı. Lakin 1992-ci il parlament seçkilərində qalib gələn mötədillər məsələnin parlament səviyyəsində müzakirəsinə nail oldular. Bu təşəbbüs nəticəsiz qaldısa da, hakim dairələr ümumi ovqatı nəzərə almaq zorunda qaldılar və bildirdilər ki, ABŞ-la əlaqələr qurulması üç şərt daxilində mümkün ola bilər: 1) İranın dondurulmuş hesablarının açılması; 2) İsraildəki sionist rejiminin müdafiəsindən ABŞ-ın imtina etməsi; 3) Fələstin və livanlıların azadlığına maneçilik törədilməməsi.
Qeyd etmək lazımdır ki, artıq bəzi məsələləri həll etmək üçün ABŞ-la danışıqlar da aparılırdı. Elə 1990-cı ilin 1-9 mayında Haaqada ABŞ və İran arasında bir sıra mülki iddiaların təmin edilməsi barəsində aparılan danışıqlarda razılaşmalar əldə edildi. 105 mln dollar dəyəri olan 2370 amerika və 400 min dollar dəyəri olan 108 İran iddiasının müəyyən hissəsi ödənildi.
1990-cı ildə xarici siyasətdə atılan mühüm addımlardan birisi də prezident Rəfsəncaninin İraq prezidenti S.Hüseynlə sülh müqaviləsini imzalamağa hazır olmasını bildirməsi idi. Bəlli olduğu kimi, bu danışıqlar hərbi əməliyyatlar dayandırıldıqdan dərhal sonra başlamışdı və bir sıra mübahisəli məsələlərə, xüsusilə də Şətt əl-ərəb çayı boyunca sərhədin haradan keçməsi məsələsinə görə heç cür yekunlaşmırdı. Rəfsəncaninin bəyanatından sonra BMT-nin baş katibi Peres de Kuelyarın vasitəçiliyi ilə iyulun 3-də Cenevrədə birbaşa İran-İraq danışıqları baş tutdu və müqavilə imzalandı. Danışıqların növbəti turu dekabrda Tehranda keçirildi və əldə edilən razılaşmaya görə tərəflər 1991-ci il yanvarın 9-na kimi öz qoşunlarını tutduqları ərazidən geri çəkməli oldular.
İrəlidə də deyildiyi kimi, prezident Rəfsəncani qonşu ərəb dövlətləri ilə, xüsusi ilə körfəz ölkələri ilə münasibətlərin normallaşdırılmasında maraqlı idi. 1990-cı ilin ortalarında Küveytdə olan Xarici İşlər Naziri Ə.Vilayəti prezidentin bu niyyətini qarşı tərəfə çatdırdı. Elə buna görə idi ki, İraqın Küveytə hücumu ilə əlaqədar Rəfsəncani bildirdi ki, «İran nə ABŞ-ın, nə də İraqın maraqları naminə qan axıtmaq fikrində deyildir». İran bu münaqişədə bitərəf mövqe tutdu və hətta böhranın həlli üçün təkliflər də irəli sürdü. O, Küveytdən İraq qoşunlarının çıxarılması ilə yanaşı ümumiyyətlə körfəzdən çoxmillətli qoşun hissələrinin də müsəlman dövlətləri hərbi qüvvələri ilə əvəz olunmasını təklif edirdi. Bu məqsədlə İran prezidenti 1991-ci ilin aprelində Suriya və Türkiyəyə səfərlər etdi.
Noyabr ayında Haaqa Beynəlxalq Məhkəməsinin qərarına əsasən 1981-ci ildə silah almaq üçün ABŞ-a ödənilən 278 mln dolların İrana qaytarılması da ilin uğurlu hadisəsi sayıla bilər.
Sovet İttifaqının dağılması və yerində müstəqil dövlətlərin yaranması zəminində İranın xarici siyasət kursunda önəm verilən bir istiqamət də yaranmışdır. Bu da onun yeni yaranmış qonşu müsəlman ölkələri ilə yaxın münasibətlər yaratmaq və regionda nüfuz sahibi olan bir dövlətə çevrilmək istəyidir. 1992-ci ilin 15-17 fevralında qonşu müsəlman dövlətlərinin cəmləşdiyi İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) Tehranda toplanması həmin istəyə doğru atılan addımlardan biri oldu. Toplantıda İran, Türkiyə, Pakistan, Azərbaycan, Özbəkistan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan və Tacikistan iştirak edirdi. Toplantının sonunda qəbul olunan sənəddə təşkilata üzv olan dövlətlər arasında iqtisadi əməkdaşlığın yüksək səviyyədə təşkili üçün modern və səmərəli infrastrukturaların yaradılmasının vacibliyi xüsusi vurğulanmışdır. Ümumiyyətlə İran EKO-ya xüsusi əhəmiyyət verir və belə hesab edir ki, bu təşkilat region ölkələrinin Hindistan yarımadası ölkələri, Mərkəzi Asiya, Cənub-Şərqi Asiya və Okeaniya ilə yaxınlaşmasında bir vasitəçi rolunu oynaya bilər, o biri tərəfdən öz imkanları və infrastrukturunu təqdim etməklə körfəz və körfəz ölkələri ilə əlaqələr yaradılması

mümkün olar. Türkiyə isə EKO-nun üzvü kimi region ölkələrinin Qara dəniz və Avropa ölkələri ilə əlaqələrində birləşdirici körpü olardı.
İranın MDB ölkələri ilə əməkdaşlığı genişləndirmək istəyindən doğan ikinci addımı «Xəzər dənizi dövlətlərinin əməkdaşlığı» təşkilatı yaradılması təşəbbüsünü irəli sürməsidir. Bu təşkilatın Rusiya Federasiyası, Türkmənistan, Qazaxıstan, Azərbaycan və İranı birləşdirməsi nəzərdə tutulur və belə hesab edilir ki, Xəzərin ekologiyasının qorunması və onun ehtiyatlarından düzgün istifadə edilməsi üzv dövlətlərin birgə əməkdaşlığı nəticəsində səmərəli ola bilər. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Xəzərin hüquqi statusunun müəyyənləşdirməsindən söhbət gedərkən İran məhz bu prinsipin əsas olduğunu bildirir.
Ümumiyyətlə qeyd etmək lazımdır ki, qonşu dövlətlərlə İran həm ikitərəfli, həm də çoxtərəfli münasibətlər qurmuşdur. Bu ölkələrin regional təşkilatlar çərçivəsində əlaqələrinə də xüsusi önəm verilməkdədir ki, bunlardan birini EKO haqqında yuxarıda danışılmışdır.
İkinci belə bir təşkilat isə İslam Konfransı Təşkilatıdır. Bu təşkilatın 1997-ci ilin 9-15 dekabrda Tehranda keçirilən VIII sessiyası İran siyasətçiləri tərəfindən təkcə islam inqilabından sonrakı dövrün deyil, ölkə tarixindəki son yarıməsrin mühüm hadisəsi kimi dəyərləndirilir. Sessiyanın açılışında prezident Xatəminin çıxışında Qərblə Şərq, xüsusilə də islam Şərqi ilə münasibətlərdə barışdırıcı motivlərin olması İranın xarici siyasət kursunda yeni istiqamətin formalaşacağına dəlalət edir. Prezident Xatəmi öz fikrini BMT Baş Məclisində çıxış edərkən bir qədər geniş şəkildə təkrarlamış və mədəniyyətlərin dialoqu məsələsini müzakirəyə çıxarmışdır. BMT Baş Məclisi 2001-ci ili mədəniyyətlərin dialoqu ili elan etmişdir.
İran qonşu ölkələrdən Rusiya Federasiyası ilə sıx əlaqələr yaratmışdır. Bu işdə hər iki dövlətin bir sıra strateji maraqlarının üst-üstə düşməsi böyük rol oynayır. Misal kimi 1995-ci ilin 8 yanvarında iki ölkə arasında bağlanan müqaviləni qeyd etmək istərdik. Müqavilənin şərtlərinə görə RF Buşir AES-nın birinci blokunun inşasını başa çatdırmaq, İranın uran yataqlarının istismarına yardım etmək, İrana yüngül sulu atom reaktorlarını vermək şərtlərini öz üzərinə götürdü. Müqavilənin ümumi dəyəri 850 mln dollar məbləğində idi. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, İran məhz bu sahədə çoxdan çabalar göstərirdi və hələ 1990-cı ildə Argentina, 1992-ci ildə Çin Xalq Respublikası, 1993-cü ildə isə RF-nın özü ilə müqavilələr bağlamışdı, müəyyən işlər də görmüşdü. RF ilə bağlanan 1995-ci il müqaviləsi dünyada böyük əks-səda doğurdu. ABŞ bu hadisəni qəti etirazla qarşıladı. Məhz həmin dövrdə ABŞ-ın ciddi etirazının nəticəsi idi ki, Çin İranda nüvə reaktoru tikmək, Ukrayna isə nüvə turbini satmaqdan müvafiq olaraq 1995-ci və 1998-ci illərdə imtina etdilər. ABŞ belə hesab edir ki, RF ilə bağlanan müqaviləyə əsasən İrana təkcə elektrik enerjisi deyil, həm də atom silahı verilə bilər. Odur ki, Buşir AES-nin tikintisi Atom Enerjisi üzrə Beynəlxalq Təşkilatın nəzarəti altına alındı. Onun istifadəyə verilməsi 2003-cü ilin dekabr ayına planlaşdırılmışdır.
Ümumiyyətlə qeyd etmək lazımdır ki, 1999-2000-ci illərdə İranın Rusiya ilə münasibətlərində xüsusi bir canlanma özünün göstərmişdir və bunun da özəyində iqtisadi-ticarət əlaqələrinin inkişafı durur. 2000-ci ildə iki dövlət arasındakı əmtəə dövriyyəsinin həcmi 603 mln dollar olmuşdur. Bu, əvvəlki il ilə müqayisədə 20% çox idi.
12-15 mart 2001-ci ildə prezident S.M.Xatəminin Rusiyaya səfəri zamanı prezident V.Putin və digər rəsmi şəxslərlə görüşlərdə iki dövlət arasında münasibətlərin daha geniş spektri müzakirə edilmiş, hərbi-texniki əməkdaşlığın genişləndirilməsi qərara alınmışdır. Səfərin ən mühüm nəticəsi isə prezidentlər tərəfindən Rusiya və İran arasında qarşılıqlı münasibətlərin və əməkdaşlığın prinsipləri haqqında müqavilənin imzalanmasıdır.
12 mart 2001-ci ildə uzun fasilədən sonra İran prezidenti S.M.Xatəmi Moskvaya gəlmiş (sonuncu dəfə İranın dövlət başçısı kimi şah M.R.Pəhləvi 1974-cü ildə Sovet İttifaqında olmuşdur-müəl.) və burada RF prezidenti V.Putin ilə birlikdə iki dövlət arasında münasibətlərin tənzim edilməsi, ən

başlıcası isə İrana hərbi texnika və silah satılması haqqında sənədlərə imza atmışdır.
İranın son dövrlərdə bağladığı qalmaqallı müqavilələrdən birisi də zəngin qaz yataqları olan Cənubi Farsda istismar işləri ilə əlaqədar 1997-ci ildə «Qazprom» (RF), «Total»(Fransa) və «Petrones»(Malayziya) arasında imzalanmışdır. Belə ki, 1996-cı ildə Konqresin qəbul etdiyi D`Amato qanununa görə ABŞ hökuməti İran və Liviyada neft və qaz sənayesinə 40 mln dollardan artıq sərmayə qoyan hər hansı amerika və qeyri-amerika şirkətinə qarşı sanksiya tətbiq edə bilər. Buna görə də ABŞ konqresi bağlanan müqaviləni ciddi etirazla qarşıladı. Lakin həmin ölkələr ABŞ-a transatlantik ticarət müharibəsi hədəsi ilə cavab verdilər və bundan sonra konqres məsələnin müzakirəsindən əl çəkdi. Təbiidir ki, bu hadisə İran üçün çox önəmli oldu. ABŞ 1998-ci ilin mayında yuxarıda haqqında danışılan şirkətlərə qarşı sanksiyalardan imtina etdi.
Yeri gəlmişkən qeyd etmək lazımdır ki, ABŞ-ın bu hərəkəti həm də məhz elə həmin dövrdən başlayaraq prezident Xatəminin xarici siyasətin bir sıra sahələrində, o cümlədən ABŞ-la münasibətlərdə ciddi dönüş yaradan əzmi və fəallığına cavab idi. 2001-ci ilin mədəniyyətlərin dialoqu ili elan olunması isə hazırkı İran iqtidarının böyük uğuru sayıla bilər və belə hesab etmək olar ki, hadisələrin normal inkişaf gələcəyindən xəbər verir.
Qeyd etmək istərdik ki, 8 iyun 2001-ci il seçkilərində S.M.Xatəminin qalib gəlməsi və yenidən prezident seçilməsi yuxarıda söylədiklərimizin məntiqi nəticəsi sayılmalıdır.

--------------------------------------------------------------------------------------

* İran rəsmi dairələri 1963-cü il referendumunu və keçirilən islahatları belə adlandırırdı.

** Üçlər paktı 1940-cı ilin 27 sentyabrında Berlində imzalanmışdır. Pakta görə Almaniya və İtaliya Avropada, Yaponiya isə Uzaq Şərqdə yeni bir düzən yaratmaq haqqı qazanırdı və tərəflərdən hər hansı birisi düşmən tərəfin hücumuna məruz qalardısa qarşılıqlı kömək göstərməli idi. 1940-cı ilin noyabrında Rumıniya və Slovakiya da bu pakta qoşulmuşdular.